# XƏZƏR XƏBƏR
# KHAZAR REVIEW

İyun 2026
№ 462



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# PROF.AKAD. HAMLET İSAXANLI ƏDƏBİYYAT VƏ KİTAB FESTİVALINDA

**(FOTOSESSİYA)**

*(Mətn18-ci səh-də)*





# PROF. ACAD. HAMLET ISAKHANLI AT A LITERATURE AND BOOK FESTIVAL

**(PHOTOSESSION)**

*(Text on page 18)*







# İÇİNDƏKİLƏR

*Qəzənfər Paşayev*. **Akademik Hamlet İsaxanlıya məktub** ....6
**Türkiyənin Kafkas Universitetinin nümayəndələri "Xəzər"də** ....9
**Fövqəladə və səlahiyyətli səfir Xəzər Universitetində** ....10
**Prof.Akad. Hamlet İsaxanlı Gəncədə akademik- bədii tədbirdə** ....12
*Dilarə İsgəndərzadə*. **Beş il sonra...**
*Nailəxanım İsayevanın xatirəsinə elegiya* ....16
**Prof.Akad.Hamlet İsaxanlı ədəbiyyat və kitab festivalında** ....18
**Əməkdar jurnalistin yolasalma tədbiri** ....20
*Solmaz Rüstəmova - Tohidi.* **Azərbaycanlı Gənclər Avropada: Strasburq səfərinin təəssüratları** ....22
**Tələbələr Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda** ....29
**"Xəzər"in tələbələri festivalda "Almaz" tamaşası ilə** ....30
**"Ədəbi tənqid və müasir ədəbi proses" mövzusunda inteqrativ dərs** ....32
*Zərifə Əliyeva, Günel Kərimova*. **Xəzər Universitetində məzun göstəriciləri: artım dinamikası, gender balansı və qlobal trendlər (son 5 tədris ili üzrə)** ....34
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri** ....38
**Pakistan İslam Respublikasının Chitral Universitetinin prorektoru Xəzər Universitetində** ....40
**"Xəzər"də "Simsiz rabitədə yaranan yeni tendensiyalar və texnologiyalar" mövzusunda seminar** .41
**Pensilvaniya Dövlət Universitetində təhsil alan doktorantın seminarı** ....42
**Girne Amerikan Universitetinin nümayəndə heyəti "Xəzər"də** ....43
**Əməkdaşlar "Çin dili körpüsü" beynəlxalq müsabiqəsində** ....45
**II Türk Tamğalarının Çağdaşlaşdırılması konfransı** ....46
**Psixologiya departamentinin koordinatoru Akdeniz Universitetində** ....49
**Beynəlxalq konfransın nümayəndələri üçün konsert** ....50
**Türkiyənin Haliç Universitetinin nümayəndəsi Xəzər Universitetində** ....52
**Tarixi və ədəbi irsə səyahət** ....54
**Özbəkistanlı tələbələr Xəzər Universitetində** ....56
**Karyera Sərgisi** ....58
**İstanbul Universitetində təhsil alan doktorantın seminarı** ....61
**"Xəzər"də elmi-praktik forum** ....62
**Neft-qaz mühəndisliyi depatamentinin tələbələri üçün seminar** ....64
**"Khazar Talks-4" : Emi Karlon`un iştirakı ilə seminar** ....68
**Türkiyənin İstanbul Esenyurt Universitetinin prorektoru Xəzər Universitetində** ....70
**Beynəlxalq konfrans** ....72
**Əməkdaş 29-cu Avrasiya İqtisadi Zirvə toplantısında** ....76

*Üz qabığında: Prof.Akad. Hamlet İsaxanlı və Xalq artisti, rejissor Ramiz Həsənoğlu (mətn 18-ci səh-də)*

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Telman Nəzərli

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
Əlirza Balayev
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Qəzənfər Paşayev
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

*Gazanfar Pashayev*. **Letter to Academic Hamlet Isakhanli** ....................6
**Representatives of Türkiye's Caucasus University at Khazar** ....................9
**Ambassador Extraordinary and Plenipotentiary at Khazar University** ....................10
**Prof. Acad. Hamlet Isakhanli at Academic-Artistic Event in Ganja** ....................12
*Dilara isgandarzade*. **After Five Years...**
*Elegiac Couplet to the Memory of Nailakhanim Isayeva (in Azerbaijani)* ....................16
**Prof. Acad. Hamlet Isakhanli at Literature and Book Festival** ....................18
**Farewell Ceremony for Honoured Journalist** ....................20
*Solmaz Rustamova - Tohidi*. **Azerbaijani Youth in Europe: Details of Strasbourg Visit** *(in Azerbaijani)* 22
**Students at Gobustan State Historical and Cultural Reserve** ....................29
**Khazar Students at Festival with "Almaz" Performance** ....................30
**Integrative Lesson on "Literary Criticism and the Contemporary Literary Process"** ....................32
*Zarifa Aliyeva, Günel Karimova*. **Graduate Figures in Khazar University: Growth Dynamics, Gender Balance and Global Trends (on the Last 5 Academic Year)** (*in Azerbaijani*) ....................34
**News of Institute of ANAS Named after Nizami** (*in Azerbaijani*) ....................38
**Vice-Rector of University of Chitral of Islamic Republic of Pakistan Visit Khazar University** ....................40
**Seminar on "Emerging Trends and Technologies in Wireless Communications" Held at Khazar University** ....................41
**Seminar by Doctoral Student Studying at Pennsylvania State University** ....................42
**Delegation from American University of Kyrenia Visit Khazar** ....................43
**Staff Members at "Chinese Bridge" International Competition** ....................45
**II Conference on Modernization of Turkish Tamgas** ....................46
**Psychology Department Coordinator Visit Akdeniz University** ....................49
**Concert for Delegates of International Conference** ....................50
**Representative of Türkiye's Haliç University at Khazar University** ....................52
**A Journey Through Historical and Literary Heritage** ....................54
**Uzbek Students at Khazar University** ....................56
**Career Fair** ....................58
**Seminar by a Doctoral Student Studying at Istanbul University** ....................61
**Scientific-Practical Forum at Khazar** ....................62
**Seminar for Students of Petroleum Engineering Department** ....................64
**"Khazar Talks-4": Seminar with Participation of Amy Carlon** ....................68
**Vice-Rector of Türkiye's Istanbul Esenyurt University Visit Khazar University** ....................70
**International Conference** ....................72
**Staff Member at 29th Eurasian Economic Summit** ....................76

*On the cover page: Prof.Acad. Hamlet Isakhanli and People's Artist, producer Ramiz Hasanoghlu (text on page 18)*

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Telman Nazarli

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Alirza Balayev
Gazanfar Pashayev
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli

**Computer graphics:**
Gunel Akbarova

Azərbaycan Yazıçılar Birliyi
ədəbiyyat QƏZETİ

# AKADEMİK HAMLET İSAXANLIYA MƏKTUB

**Hörmətli Hamlet müəllim,**

Məni dərginizin Redaksiya heyətinə daxil etdiyinizə görə təşəkkür edirəm. Adımı Moskvada yaşayan, həyatını Azərbaycan ədəbiyyatının inkişafına və təbliğinə həsr edən Alla Axundova, İsa Həbibbəyli, İsaxan İsaxanlı, İsmixan Yusubov, Knyaz Aslan kimi ömrünü təhsilimizə və elmimizə həsr edən ziyalıların arasında görmək xoşdur. Mən “Xəzər Xəbər”in mart 2026-cı il sayını oxuyandan sonra deyə bilərəm ki, indiyə qədər hər sayını intizarla gözlədiyim “Azərbaycan” və “Yada düşdü” dərgilərinə bir dərgi də əlavə olundu.

Əziz Hamlet müəllim, səmimiyyətlə deyirəm, Universitetinizin 35 illik yubileyinə həsr olunmuş mərasimdəki çox yığcam, dərin mənalı, çox da maraqlı nitqinizi dönə-dönə oxudum. Heyrətləndim ki, qısa çıxışda bu qədər məsələlərdən necə söhbət açmaq olar?

Mən qırx ilə yaxın ali məktəblərdə tədrislə məşğul olmuşam, 20 ilə qədər kafedra müdiri işləmişəm. İki ay ABŞ-da (1983), bir ay İngiltərədə (1988) ixtisasartırma kurslarında olmuşam. Tədrisin çətinlikləri barədə az-çox məlumatım var. İnanılası deyil ki, Sovet quruluşunun sonlarına yaxın, sovetlər məkanında təcrübədə olmayan, yox yerdən şəffaflığı və akademik sərbəstliyi həyata keçirən ilk özəl universitet yaradasan və böyük nailiyyətlərə imza atasan.

Xəzər Universiteti təkcə Azərbaycanda deyil, bütün Sovetlər Birliyində hökumətin qərarı ilə yaradılan ilk özəl universitetdir. Bu universitet adamı heyrətə gətirən bir çox “ilk”lərə imza atıb. Xəzər Universiteti ölkəmizdə ilk ingilisdilli, ilk tələbə mərkəzli, ilk bakalavr və magistr proqramlarını yaradan, ilk ciddi laboratoriyalar quran, ABŞ, Avropa, Türkiyə və İranla, Çin, Yaponiya, Koreya, Malayziya və Avstraliya ilə əməkdaşlıq edən Beynəlxalq Universitetə çevrilmişdir. Bu, unudulmaz Nailəxanım və Sizin titanik zəhmətiniz hesabına mümkün olmuşdur.

Məni hər şeydən əvvəl düşündürən çıxışınızdakı əlçatmaz sadəlik, axıcılıq, məntiqi fikirlərin ardıcıllığı, şairanəlik oldu. Bunun üçün gərəkdir ki, dərin elmi biliyə, müşahidə qabiliyyətinə, fitri istedada malik olasan, şairlik və ədiblik təcrübən ola. Siz dəqiq elmlər üzrə görkəmli mütəxəssissiniz, şairsiniz, “Dəli Ceyran” romanınız “Azərbaycan” jurnalında bu il çap olunub. Deməli, həm də ədibsiniz. Belə olmasa idi fikirlərinizi təbii və şairanə şəkildə ifadə etmək asan olmazdı: “Yaşadığımız, içində olduğumuz gerçək dünya ilə yanaşı, insanın bir xəyal dünyası da var, sonsuz, ucsuz-bucaqsız… İnsan həmişə xəyal ilə gerçəklik arasında var-gəl edir, xəyal etdiklərini gerçək həyatda görmək istəyir. Xəyal yaradıcılığın canıdır, anasıdır. Bədii ədəbiyyat xəyalın məhsuludur. Musiqi və incəsənət xəyalın övladlarıdır. Təbiət elmləri də, texnologiya da öz fövqəladə uğurlarına görə xəyala çox borcludur. A.Eynşteyn bunu belə ifadə etmişdir: “Xəyal bilikdən daha vacibdir. Bilik məhduddur, xəyal isə bütün dünyanı qucaqlayır, tərəqqiyə yol açır”.

Əzizim, arzular, xəyallar sizi ağuşuna alıb pərvazlandırmış, ağılla, dərrakə ilə xəyallarınızı gerçəkləşdirərək az adama qismət olan mərtəbəyə yüksəlibsiniz. Beynəlxalq aləmdə tanınan Xəzər Universitetini və "Dünya" məktəbini yaradıbsınız.

Hamlet müəllim, Nailə xanımla birgə təşkil etdiyiniz “Elm və sənət” məclisi də ölkəmizdə bir “ilk”dir, yenilikdir. Təəssüf ki, məclisin Səməd Vurğun və onun Zənci qəhrəmanına həsr olunmuş sonuncu – 84-cü məşğələsindən dəvət almamışdım. Gözəl faktlar üzə çıxarıbsınız.

Siz hər sahədə oxucunu heyran qoyan faktlar və elmi yeniliklərlə diqqəti cəlb edirsiniz. Mən 1983-cü ildə ABŞ-nin Arizona Universitetində ixtisasartırma kurslarında olarkən Səməd Vurğunun "Zəncinin arzuları" poeması ilə bağlı çox maraqlı hadisələrin şahidi oldum. Burada təkcə onu deyim ki, professor Sesil Robinson, demək olar ki, "Zəncinin arzuları"nı əzbər bilirdi. Bu barədə "Səməd Vurğunun dünya şöhrəti" adlı məqaləmdə söz açmışam (bax: Qəzənfər Paşayev. "Seçilmiş əsərləri". III cild. Bakı, "Təhsil", 2012, s.314-318).

"Xəzər Xəbər"də yer alan "Səməd Vurğun və onun zənci qəhrəmanının sorağında" adlı ciddi tədqiqatınız (s.40-68) materialın zənginliyi və yeniliyi ilə diqqəti çəkir. Tədqiqatınızdan məlum olur ki, "Zəncinin arzuları" Səməd Vurğunun təkcə xəyal dünyasının məhsulu deyil. O, baş qəhrəmanının "Kürsüyə sinə gərdiyini" gözləri ilə görmüş, odlu-alovlu çıxışını dinləmiş, qəhrəman ilə kəlmə kəsmiş, hətta onunla şəkil də çəkdirmişdir.



*Xəzər Universiteti*
*Sağdan: Hamlet İsaxanlı, Murad, Qənirə, Qəzənfər Paşayevlər*

Hörmətli Hamlet müəllim, tədqiqatınızda nə yaxşı ki, Səməd Vurğunun möhtəşəmliyini ön plana çəkmisiniz. Şairin parlaq istedadını əcnəbilərə göstərməyə nail olubsunuz. Əslində bunu əcnəbilər özləri göstərmişlər. ABŞ Nümayəndələr Palatası Komitəsi öz hesabatında SSRİ nümayəndə heyətindən konqresdə mühüm rol oynayanları qeyd edərkən S. Vurğun da daxil olmaqla 10 nəfərin adını çəkir "və başqaları" deyir. Hamlet müəllim, bu faktları üzə çıxarıb xalqa təqdim etdiyinizə görə Sizə təşəkkür edirəm."

Tədqiqatınızda maraqlı "Giriş" və "Nəticə" bölümləri məqsəd və məramınızı açıqlamaqda yardımçı olur. Əsəriniz biri-birindən maraqlı: "Amerika haqqında nə düşünürsünüz?", "Sülh hücumu", "Sülhü müdafiə edən mədəniyyət xadimlərinin ümumdünya konqresi", "Açılış", "Aleksandr Fadeev "vurub-dağıdır!", "Konqresdə heyrət, sarsıntı və həyəcan", "Əks-hücum və əks-səda", "Səməd Vurğunun hədəfinə düşənlər", "Konqresdəki zənci rəssamın sorağında", "Zənci rəssam deyil, zənci qəhrəmanın sorağında", "Buyurun, qəhrəmanımızı tanıyın" bölmələrindən ibarətdir.

Bu, çox böyük zəhmət, enerji tələb edən təmənnasız iş aylarla, bəlkə də ilə tamamlanmışdır. Qənaətimə görə, təmənnasız görülən iş qəhrəmanlığa bərabərdir.

Mənim ən çox diqqətimi çəkən "Amerika haqqında nə düşünürsünüz?" bölümü oldu. Əvvəla, iki ay ABŞ-də onların həyat və düşüncə tərzini izləmək mənə də qismət olmuşdur. Əsas isə odur ki, məni ABŞ-də fəaliyyət göstərən "Berkshire Publishing Group"un sahibi və baş direktoru, xanım Karen Christendən aldığınız məktub düşündürdü. Karen xanım "Amerika Birləşmiş Ştatları Barədə Qlobal Perspektivlər" adlı ensiklopedik bir əsər nəşr etmək fikrində olduğunu, onu dünya xalqlarının ABŞ barədə nə düşündüklərini göstərən məqalələr toplusu kimi nəzərdə tutduğunu yazması və Sizə "Azərbaycana aid hissəni yaza bilərsinizmi?" sualı ilə müraciət etməsi çox mətləblərdən xəbər verir. Bu məktub Sizin Beynəlxalq aləmdə tanınmağınız və nüfuz sahibi olmağınızı nişan verir. Qürur duydum ki, çox ciddi bir problem barədə Azərbaycan xalqının da fikrini bilmək istəyirlər.

Gecə-gündüz çalışdınız, tədqiqatı dərgiyə təqdim etdiniz. Dərginin Sizin məqalənizi qiymətləndirmək üçün seçdiyi anonim rəyçilər mövzunun aktuallığı, qaynaqların uyğunluğu, məqalənin quruluşu kimi məsələləri təftiş etməyə başlayıblar. Ədalətli qeydlərini nəzərə alıb məqalənin keyfiyyətini yaxşılaşdırıbsınız. Məqalənin Səməd Vurğun hissəsi rəyçilərin o qədər xoşuna gəlib ki, Azərbaycan Sovet poeziyasından Amerika barədə varsa, əlavə etməyi xahiş ediblər. Məmməd Rahim, Rəsul Rza və bir neçə başqa şairlərin yaradıcılığından misallar gətirməklə mövzunu tamamlayıbsınız.

Hamlet müəllim, iki cilddən ibarət bu kitabda müxtəlif ölkələrdən olan 140-dan çox mütəxəssis tərəfindən yazılmış məqalələrin (əslində mükəmməl tədqiqatların) arasında cəmisi on milyon əhalisi olan Azərbaycan Respublikasının aliminin yazısını görmək qürurvericidir.

718 səhifədən ibarət qərəzsiz toplu dünya xalqlarının baxış bucağından ABŞ-nin imicini, bu qeyri-adi ölkə ilə bağlı mürəkkəblikləri və ziddiyyətləri araşdıran qiymətli mənbədir.

Hamlet müəllim, "Konqresdəki zənci rəssamın sorağında" və "Zənci rəssam deyil, zənci qəhrəmanın sorağında" başlıqlarından çıxış edərək aşağıdakıları demək istərdim. İngilis dilində rəssam da, estrada müğənnisi də artist sözü ilə ifadə olunur. Əslində, artist sözü Azərbaycan dilində də müğənni mənasında işlənir. Müğənnilərə verilən fəxri ad deyilənləri təsdiqləyir – "Xalq artisti".

Tədqiqatınızı yüksək qiymətləndirir və təəssüf hissi keçirirəm ki, tərcüməçinin səhvi ucbatından Səməd Vurğun qəhrəmanını rəssam kimi təqdim etmişdir.

Əzizim, bizim üçün əsas odur ki, Səməd Vurğun dünyaya "Zəncinin arzuları" kimi, hətta ABŞ-nin özündə belə dəyərləndirilən möhtəşəm poema bəxş etmişdir.

Neçə illərdən bəri sizi yaxşı tanıdığımdan çəkinmədən deyirəm: Təmənnasız və iddiasız adamsınız. Əlçatmaz sadəliyiniz və təvazökarlığınızla seçilən ziyalısınız. Şəxsi həyatınız və elmi fəaliyyətinizlə nümunəvi, örnək şəxsiyyətsiniz. Təhsil və elm sahəsində, sözün həqiqi və məcazi mənasında məktəb yaradıbsınız.

Gördüyünüz müqəddəs işlərdə Sizə uğurlar, qədrini itirdikdən sonra bildiyimiz cansağlığı, gümrahlıq arzu edirəm.

**Hörmət və ehtiramla,**
*Qəzənfər Paşayev*

*https://edebiyyatqazeti.az/news/diger/14536-ezizim-hamlet-isaxanliya-mektub*

# TÜRKİYƏNİN KAFKAS UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ



*Selcuk Ural, Hamlet İsaxanlı, İlkin Qulusoy, Dilbər Zeynalova*

# REPRESENTATIVES OF TÜRKIYE'S CAUCASUS UNIVERSITY AT KHAZAR

Mayın 14-də Türkiyənin Kafkas Universiteti nümayəndələri prorektor Prof. Selcuk Ural və Çağdaş türk ləhcələri və ədəbiyyatları (Azərbaycan türkcəsi və ədəbiyyatı) departamentinin müdiri Prof. İlkin Qulusoy Xəzər Universitetində olublar.

Qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı ilə görüşüblər. Görüşdə Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova da iştirak edib.

Səmimi və işgüzar şəraitdə keçən görüş zamanı iki ali təhsil müəssisəsi arasındakı mövcud əlaqələrin genişləndirilməsi, elmi və akademik əməkdaşlıq imkanlarının inkişafı, həmçinin, gələcək perspektivlər barədə müzakirələr aparılıb. Tərəflər əməkdaşlığın və ortaq layihələrin hər iki universitet üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

On May 14, Pro-Rector Prof. Selcuk Ural and Prof. Ilkin Gulusoy, Head of the Department of Contemporary Turkic Dialects and Literatures (Azerbaijani Turkic and Literature) of Türkiye's Caucasus University, paid a visit to Khazar University.

The guests met with the Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli. Assoc. Prof. Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures, also attended the meeting.

During the meeting, which took place in a warm and businesslike atmosphere, discussions were held on expanding existing ties between the two higher education institutions, developing opportunities for scientific and academic cooperation, as well as future prospects. The parties emphasized that cooperation and joint projects are of significant importance for both universities.

# FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİR XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 15-də Xəzər Universitetində Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dr. Ralf Horlemann ilə tələbə və akademik heyətinin görüşü keçirilib. "Germany and Azerbaijan: A Dynamic Relationship"



*Raziyə İsayeva, Firuz Süleymanov*

mövzusuna həsr olunan tədbirdə Azərbaycan və Almaniya arasında mövcud əməkdaşlıq əlaqələri, siyasi, iqtisadi, təhsil və mədəni sahələrdə tərəfdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Görüş iki hissədən ibarət olub. İlk olaraq, universitet nümayəndə heyəti ilə rəsmi görüş keçirilib. Görüşdə Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva və Beynəlxalq əlaqələr ofisinin müdiri Dr. Firuz Süleymanov iştirak ediblər. Müzakirələr zamanı Almaniya universitetləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, gələcək akademik tərəfdaşlıqlar, tələbə və müəllim mübadilə imkanları, Xəzər Universitetində alman dili tədrisinin inkişafına göstərilə biləcək dəstək və Almaniya səfirliyi tərəfindən təşkil olunan tədbirlərdə Xəzər Universiteti tələbələrinin daha fəal iştirakının təmin olunması kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirin seminar hissəsində səfir Dr. Ralf Horlemann Almaniya ilə Azərbaycan arasında uzun

# AMBASSADOR EXTRAORDINARY AND PLENIPOTENTIARY AT KHAZAR UNIVERSITY

On May 15, a meeting was held at Khazar, organized by the Office of International Relations, between Dr. Ralf Horlemann, Ambassador Extraordinary and Plenipotentiary of the Federal Republic of Germany to Azerbaijan, and the university's students and academic staff. The event, dedicated to the



*Zaur Bəndəliyev, Ralf Horlemann, Teresa Lünemann*

topic "Germany and Azerbaijan: A Dynamic Relationship," focused on existing cooperation ties between Azerbaijan and Germany, as well as prospects for the development of partnerships in the political, economic, educational, and cultural spheres.

The meeting consisted of two parts. The first was an official meeting with the university's delegation, attended by Khazar University Rector Dr. Razia Isaeva and Director of the Office of International Relations Dr. Firuz Suleymanov. Discussions covered the expansion of cooperative ties with German universities, future academic partnerships, student and faculty exchange opportunities, potential support for the development of German language instruction at Khazar University, and ways to ensure more active participation of Khazar University students in events organized by the German Embassy.

In the seminar segment of the event, Ambassador Dr. Ralf Horlemann spoke about the long-standing relations between Germany and Azerbaijan, the development of mutual coope-




illərə əsaslanan münasibətlərdən, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın müxtəlif istiqamətlərdə inkişafından və xüsusilə, təhsil sahəsində beynəlxalq tərəfdaşlıqların əhəmiyyətindən bəhs edib. O, həmçinin, Almaniyada təhsil imkanları, akademik mübadilə proqramları, gənclərin beynəlxalq əməkdaşlıq proseslərində rolu və gələcək perspektivlər barədə iştirakçılarla fikirlərini bölüşüb.

Seminar interaktiv müzakirələrlə davam edib. Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri səfirə Almaniya-Azərbaycan münasibətləri, beynəlxalq siyasət, təhsil imkanları, tələbə mübadilə proqramları, diplomatik fəaliyyət və gənclərin beynəlxalq münasibətlərdə rolu ilə bağlı müxtəlif suallar ünvanlayıblar. Səfir tələbələrin suallarını ətraflı şəkildə cavablandıraraq, onların beynəlxalq təcrübə və təhsilə marağını yüksək qiymətləndirib.

Sonda Dr. Ralf Horlemann`a Xəzər Universiteti adından xatirə hədiyyəsi təqdim olunub, görüş iştirakçıları ilə birgə xatirə şəkilləri çəkdirilib. Tədbir tələbələr üçün beynəlxalq münasibətlər və diplomatiya sahəsində faydalı fikir mübadiləsi və təcrübə platforması kimi yadda qalıb.

ration between the two countries across various areas, and, in particular, the importance of international partnerships in the field of education. He also shared his views with participants on study opportunities in Germany, academic exchange programs, the role of young people in international cooperation processes, and future prospects.

The seminar continued with interactive discussions. Students of the School of Humanities, Education and Social Sciences addressed the Ambassador with a range of questions concerning German-Azerbaijani relations, international politics, educational opportunities, student exchange programs, diplomatic activity, and the role of youth in international relations. The Ambassador provided detailed responses to the students' questions and expressed high regard for their interest in international experience and education.

At the conclusion of the event, Dr. Ralf Horlemann was presented with a commemorative gift on behalf of Khazar University, and group photographs were taken with the participants. The event remained memorable for students as a valuable platform for the exchange of ideas and experience in the fields of international relations and diplomacy.

## PROF.AKAD. HAMLET İSAXANLI GƏNCƏDƏ AKADEMİK- BƏDİİ TƏDBİRDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı mayın 18-də Gəncə şəhərində yerləşən Nizami Gəncəvi



*Pərvin Kərimzadə*

Muzeyində Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Nəsildən - nəsilə bir yadigar" adlı akademik-bədii tədbirdə iştirak edib. Tədbir "Dün-



*Əlimuxtar Muxtarov*

## PROF. ACAD. HAMLET ISAKHANLI AT ACADEMIC-ARTISTIC EVENT IN GANJA

Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli participated on May 18, in an academic-artistic event titled "A Legacy from Generation to Ge-




*Hamlet İsaxanlı*

neration," dedicated to International Museum Day, held at the Nizami Ganjavi Museum in the city of Ganja. The event was organized through the joint initiative of the "Dunya" School LLC's Nailakhanim Museum, the Jafar Jabbarly House Museum, and the Nizami Ganjavi Museum.

The event, held under this year's ICOM — International Council of Museums theme "Museums for Good Education," brought together staff members from more than 35 museums operating under the Ganja-Dashkasan and Tovuz-Gazakh regional culture departments. Staff from Baku's Samad Vurgun House Museum, Abdulla Shaig House Museum, Uzeyir Hajibeyli House Museum, Gara Garayev Memorial Museum, Niyazi Apartment Museum, Bulbul Memorial Museum, and Jafar Jabbarly House Museum also attended the event.

As part of the event, the mausoleum of Nizami Ganjavi was visited and his memory was honored.



*Aygün İsayeva*

ya" Məktəbi MMC - nin Nailəxanım Muzeyi, Cəfər Cabbarlı Ev Muzeyi və Nizami Gəncəvi Muzeyinin birgə təşəbbüsü ilə keçirilib.

(*Ardı səh.14-də*)

Speakers at the event included Parvin Karimzade, Member of the Milli Majlis; Alimuxtar Muxtarov, Deputy Chairman of the Ganja Branch of ANAS; Prof. Acad. Hamlet Isakhanli; Aygun Isayeva, Director of "Dunya" School; and others.

In his extensive address, Prof. Acad. Hamlet Isakhanli noted that Museum Day has been observed for 50 years, emphasizing the vital role of museums in preserving national and cultural heritage, passing it on to future generations, and educating society.

During the artistic segment, singers Ilaha Afandiyeva and Farid Aliyev performed pieces from Azerbaijani classical music. A dance performance by students of Ganja's "Dunya" School to the song "Inci Chichayi" - with lyrics by Hamlet Isakhanli and music by Nailakhanim Isayeva - was warmly received by the audience.

Traveling exhibitions of the "Dunya" School's Nailakhanim Museum and the Jafar Jabbarly House Museum were also on display as part of the event.

(*To be continued page 14*)






ICOM - Beynəlxalq Muzeylər Şurasının builki "Muzeylər parçalanmış dünyanı birləşdirir" şüarı ilə keçirilən tədbirdə Gəncə-Daşkəsən və Tovuz-Qazax regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən 35-dən artıq muzeyin əməkdaşları iştirak ediblər. Bakı şəhərindən Səməd Vurğunun Ev Muzeyi, Abdulla Şaiqin Ev Muzeyi, Üzeyir Hacıbəylinin Ev Muzeyi, Qara Qarayevin Xatirə Muzeyi, Niyazinin Mənzil-Muzeyi, Bülbülün Memorial Muzeyi və Cəfər Cabbarlı Ev Muzeyinin əməkdaşları tədbirə qatılıblar.

Tədbir çərçivəsində Nizami Gəncəvinin məqbərəsi ziyarət olunub, xatirəsi anılıb.

Milli Məclisin deputatı Pərvin Kərimzadə, AMEA Gəncə Bölməsinin sədr müavini Əlimuxtar Muxtarov, Prof. Akad. Hamlet İsaxanlı, "Dünya" Məktəbinin direktoru Aygün İsayeva və başqaları çıxış ediblər.

Prof.Akad. Hamlet İsaxanlı geniş çıxışında Muzeylər gününün artıq 50 il-



*Fərid Əliyev*



*İlahə Əfəndiyeva*

dir qeyd olunduğunu bildirib, muzeylərin milli-mədəni irsin qorunması, gələcək nəsillərə ötürülməsi və cəmiyyətin maarifləndirilməsindəki mühüm rolunu vurğulayıb.

Bədii hissədə müğənnilər İlahə Əfəndiyeva və Fərid Əliyev Azərbaycan klassik musiqisindən parçalar ifa ediblər. Gəncə "Dünya" məktəbi şagirdlərinin sözləri Hamlet İsaxanlıya, musiqisi Nailəxanım İsayevaya məxsus "İnci çiçəyi" mahnısının sədaları altında rəqsi maraqla qarşılanıb.

Tədbir çərçivəsində "Dünya" Məktəbi Nailəxanım Muzeyinin və Cəfər Cabbarlı Ev Muzeyinin səyyar sərgiləri də nümayiş olunub.

Eyni zamanda, tədbirdə "Dünya" Məktəbi MMC - nin direktoru Aygün İsayeva Gəncə şəhərində maarif və mədəniyyətin inkişafında göstərdiyi xidmətlərə görə, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi tərəfindən təşəkkürnamə ilə təltif edilib.

Additionally, at the event, Aygun Isayeva, Director of "Dunya" School LLC, was awarded a certificate of appreciation by the Ganja-Dashkasan Regional Culture Department for her contributions to the advancement of education and culture in the city of Ganja.





# BEŞ İL SONRA...

## *Nailəxanım İsayevanın xatirəsinə elegiya*

Görkəmli fransız yazıçısı Lamartin deyirdi ki, cəmi bir insanın yoxluğu ilə bütöv dünya boşalır. Nailəxanım İsayevanın yoxluğu Lamartinin sözlərini həqiqətə çevirmək üçün kifayətdir.

Onun yoxluğu ilə bir ev, bir məktəb, bir universitet, Dünya boşaldı...

Mahnılar sözsüz, şeirlər musiqisiz qaldı...

Bir insanın yoxluğunu anlamaq heç də asan deyil. Əvvəlcə, insan inana bilmir. Elə bilir, səfərdədir, xəstəxanadadır, ya da istirahətdə. Beyin yoxluğu qəbul edə bilmir, sanki bəhanələr istehsal edir. Ancaq o şəxsin arxada buraxdığı boşluq nə qədər böyükdürsə, boşluq o qədər çox gözə dəyir. Onun evdəki yeri boş görünür, məktəbdəki yeri, universitetdəki yeri... Hər birimizin həyatında tutduğu yeri...

Hamlet müəllimin yazdığı kimi... "Səndən sonra dostlar sənsizliyə dözə bilmədiyimi, əzab çəkdiyimi görüb fikrim dağılsın deyə məni dağ yerlərinə apardılar. İlk gün hoteldə mənə ayrılan otağa daxil oldum, yol paltarımı dəyişdim və adətim üzrə sənə zəng etmək istədim. Telefonu götürdüm, barmağımı telefondakı adın üzərinə qoyub zəng etdim və donub qaldım. Adətən hara getsəm, hoteldə mənə ayrılan otağa daxil olan kimi sənə zəng edərdim: "Əzizim, sağ-salamat gəlib çatdım, çox heyif ki, burada deyilsən, darıxıram sənsiz..."

Sonra isə daha çətin mərhələ gəlir. Yoxluğa alışmaq... Bu, çətin və bəlkə də mümkünsüzdür... İnsan itkiyə alışmır, sadəcə bu itki ilə birgə addımlamağı öyrənir. Ağrı heç zaman azalmır, ağrı ilə yaşamağı öyrənir. O itki, o ağrı ürəyimizdə özünə bir künc təyin edir və sona qədər bizimlə birlikdə yaşayır... Eynilə Hamlet müəllimin Nailəxanımın ölü-

mündən sonra taxdığı üzük kimi... "Mənə bağışladığın nişan üzüyü vardı. Onu bir müddət barmağımda gəzdirmişdim. Bir qədər sonra üzük taxmaqdan xoşum gəlmədiyi üçün sənin icazənlə onu barmağımdan çıxarıb ailə arxivimizə qoyduq. İndi həmin üzüyü tapıb barmağıma taxdım; xəbərin olsun, səninlə yenidən, bu dəfə sənin birbaşa iştirakın olmadan nişanlandım".

Böyük insan olmağın heç şübhəsiz ki, öz əziyyəti, öz zəhməti var, çünki böyük insanlar təkcə öz yaxınlarının taleyi haqqında düşünmürlər. Onları bütöv bir xalqın, millətin taleyi qayğılandırır, düşündürür və narahat edir. Nailəxanımın da "Dünya" məktəbini qurması, onun fəaliyyətinə rəhbərlik etməsi heç şübhəsiz ki, millətin taleyi ilə bağlı narahatlığın, onun mənəvi yüksəlişində iştiraka canatımın və təhsilin gücünə inamının aydın ifadəsidir.

Nailəxanım "Dünya" məktəbinin hər bir işi ilə şəxsən məşğul olurdu. Ən xırda detalı belə diqqətdən kənarda qoymurdu. Bütün şagirdlərlə tək-tək maraqlanır, onların inkişafına şəxsi dəstək göstərmək istəyirdi. O, hər şeyə yetmək istəyirdi, hər problemi şəxsən özü həll etmək istəyirdi. O istəyirdi ki, "Dünya" məktəbinin hər bir şagirdi uğur qazansın, mənəvi və zehni inkişafı təkmil olsun, ortaya çıxan problemlər həll edilsin. Bütün şagirdlərə ayrıca diqqət ayırırdı, onlarla söhbət etməkdən zövq alırdı. Bu söhbətlər şagirdlərin zehninə ömürlük həkk edilirdi, çünki o, didaktik danışmırdı, şagirdə qulaq asmağı bacarırdı, şagird onunla danışdıqda nə istədiyini özü aydın şəkildə başa düşürdü, öyrənirdi. Bəzən insanları sadəcə dinləmək belə onların düzgün yolu tapması üçün kifayət edir. Nailəxanım bu qədim və ali həqiqəti dərk etmiş insanlardan biri idi.

Nailəxanım yanına gələn hər bir şəxsə - əlillərə, müharibə veteranlarına, valideyn himayəsindən məhrum olmuşlara kömək göstərirdi, onların dərdinə yanırdı, onların problemlərini öz canında, öz ruhunda hiss edirdi. Əlbəttə ki, onun imkanları da hüdudsuz deyildi, bəzilərinə kömək edə bilirdi, bəzilərinə kömək etmək isə onun imkanlarından, səlahiyyətlərindən çox-çox uzaqda idi. Bununla belə, hər kəs Nailə xanımın onun dərdinə ürəkdən yandığına, onu başa düşdüyünə, kömək göstərmək istəyinə səmimi qəlbdən inanırdı, onu sevirdi, ona hörmət bəsləyirdi və onun simasında özünə bir hami, bir dayaq, bir istinad nöqtəsi tapırdı. Nailəxanım onunla cəmi beş dəqiqə belə ünsiyyətdə olan insanın yaddaşında silinməz izlər qoyurdu.

Nailəxanımın gördüyü işlərlə bağlı çox danışmaq olar. Ancaq cəmi bir məqamı xatırlatmaq kifayətdir. Belə ki, Nailəxanım "Günəş" uşaq evini himayəyə götürmüş, uşaq evində repetitorluq kursları təşkil etmiş, həmin kurslar nəticəsində uşaq evinin səkkiz məzunu Xəzər Universitetinə daxil olmuşdu. Həmin uşaqların toyunu da Nailəxanım etmişdi. Xalq üçün bundan böyük xidmət ola bilərmi? O, bütün bu işləri heç yerdə reklam etmirdi. Uşaqların rifahı, xoşbəxtliyi, səadəti onun üçün ən böyük töhfə, ən böyük fərəh idi.

O uşaqlar var olduqca Nailəxanım yaşayacaq...
Dünya məktəbi var olduqca Nailəxanım yaşayacaq...
Bəstələdiyi mahnılar səsləndikcə Nailəxanım yaşayacaq...
Onun şagirdləri, tələbələri daim onun varlığını yaşadacaq...
Onlar da yeni şagirdlər, yeni tələbələr yetişdirəcək...
Və Nailəxanım daim var olacaq!

**Dilarə İsgəndərzadə**

*https://www.baki-xeber.com/sosial/248465.html*

## *PROF.AKAD. HAMLET İSAXANLI ƏDƏBİYYAT VƏ KİTAB FESTİVALINDA*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı mayın 22- dən 26-dək təşkil olunmuş "VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı" çərçivəsində "Səməd Vurğun – 120" panelində iştirak edib.




*Aygün Bağırlı*

Azərbaycan Milli Elmlər Akademiyasının ev sahibliyi ilə keçirilən festival AMEA-nın parkında – açıq havada yüksək səviyyədə təşkil olunub. Festivalın ikinci günü mayın 23- də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, fil.ü.f.d.,Dos. Aygün Bağırlının moderatorluğunda xalq şairi Səməd Vurğunun 120 illiyinə həsr olunmuş paneldə Prof.Akad. Hamlet İsaxanlı "Səməd Vurğun və onun Zənci Qəhrəmanının sorağında" adlı məruzə ilə çıxış edib. Həmçinin, filologiya üzrə fəlsəfə doktoru Aslan Salmansoy mövzu ilə bağlı məruzə edib. Paneli giriş sözü ilə filologiya elmləri doktoru, Prof. Qəzənfər Paşayev açıb. O, S.Vurğunun yaradıcılığından danışaraq, məruzə üçün sözü

## *PROF. ACAD. HAMLET ISAKHANLI AT LITERATURE AND BOOK FESTIVAL*

Khazar University founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli participated in the "Samad Vurgun – 120" panel



*Qəzənfər Paşayev*

as part of the "6th Turkic World Literature and Book Festival," held from May 22 to 26.

The festival, hosted by the Azerbaijan National Academy of Sciences, was organized at a high level in the open air at ANAS Park. On the second day of the festival, May 23, at a panel dedicated to the 120th anniversary of People's Poet Samad Vurgun — moderated by Aygun Baghirli, Scientific Secretary of the Nizami Ganjavi Institute of Literature and Associate Professor, PhD in Philology — Prof. Acad. Hamlet Isakhanli delivered a paper titled "In Search of Samad Vurgun and His Black Hero." As well as, Aslan Salmansoy, PhD in philology reported on the issue. The panel was opened with introductory

Hamlet İsaxanlıya verib. Hamlet İsaxanlının məruzəsi dinləyicilər tərəfindən çox böyük maraqla qarşılanıb. Məruzə ilə bağlı prezentasiyada Xalq şairinin indiyədək məlum olmayan 6 şəkli nümayiş etdirilib. Tədbirdə Xəzər Universitetindən müəllim və tələbələr də iştirak ediblər.



*Aslan Salmansoy*



*Hamlet İsaxanlı*

remarks by Doctor of Philological Sciences, Prof. Gazanfar Pashayev, who spoke about Vurgun's work before giving the floor to Hamlet Isakhanli. Isakhanli's paper was met with great interest by the audience. The accompanying presentation featured 6 previously unknown photographs of the People's Poet. Faculty members and students from Khazar University also attended the event.



## ƏMƏKDAR JURNALİSTİN YOLASALMA TƏDBİRİ

Xəzər Universitetində mayın 26 - da Əməkdar jurnalist, uzun illər "Xəzər Xəbər" jurnalında baş redaktor müavini vəzifəsində çalışmış Əlirza Balayevin işdən ayrılmağı ilə əlaqədar yolasalma tədbiri keçirilib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı Əlirza Balayevin jurnaldakı fəaliyyətini yüksək qiymətləndirərək, onun peşəkarlığını, "XəzərXəbər"in hazırkı səviyyəyə çatdırılması, sayılıb- seçilən bir dərgiyə çevrilməsi üçün xüsusi əməyi olduğunu qeyd edib. Ə. Balayevə gələcək həyatında və yaradıcılığında uğurlar arzulayan H. İsaxanlı ümidvar olduğunu bildirib ki, doğma universitetlə əlaqələrini bundan sonra da davam etdirəcək.



*Əlirza Balayev*

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva Əlirza Balayevin jurnalın baş redaktor müavini kimi universitetin inkişafına verdiyi töhfələri qeyd edib və xüsusi vurğulayıb ki, Əlirza müəllimin tələbkarlığı da əməkdaşlarla yaradıcı münasibətdə önəmli rol oynayıb.

Tədbirdə iştirak edənlərdən Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Humanitar təhsil və sosial elmlər fakültəsinin dekanı Milana Abbasova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova, Keyfiyyətin Təminatı Mərkəzinin rəhbəri Lyudmila Sotova, "XəzərXəbər"in əməkdaşlarından Əfruz Fərzəliyeva və Telman Nəzərli Əlirza Balayevə

## FAREWELL CEREMONY FOR HONOURED JOURNALIST

A farewell ceremony was held at Khazar University on May 26, in connection with the departure of Honoured Journalist Alirza Balayev, who served for many years as Deputy Editor-in-Chief of Khazar Review journal.

Prof. Acad. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trus tees, highly commended Alirza Balayev's contributions to the journal, noting his professionalism and the particular role he played in bringing Khazar Review to its current level and transforming it into a distinguished publication. Wishing Balayev success in his future life and creative endeavours, H. Isakhanli expressed confidence that he would continue to maintain his ties with his alma mater.



*Hamlet İsaxanlı*

Khazar University Rector Dr. Razia Isaeva acknowledged Alirza Balayev's contributions to the university's development in his capacity as Deputy Editor-in-Chief of the journal, and placed particular emphasis on the fact that Alirza Balayev's high standards also played an important role in fostering a creative rapport with colleagues.

Among those in attendance, Dean of the School of Science and Engineering Fakhrandeh Afandiyeva, Dean of the School of Humanities and Social Sciences Milana Abbasova, Dean of the Graduate School of Science, Art and Technology Gunel Bahaddinova, Head of the Quality Assurance Centre Lyudmila Sotova, and Khazar Review staff members Afruz Farzaliyeva




*Raziyə İsayeva*

xoş arzularını bildirib, onunla bağlı xatirələrini bölüşüblər.

Əməkdar jurnalist Əlirza Balayev tədbirin təşkilinə görə, universitet rəhbərliyinə təşəkkürünü bildirib, Xəzər Universitetini həmişə ehtiramla xatırlayacağını, bu təhsil ocağını öz doğma ocağı sayacağını xüsusi vurğulayıb.

Tədbirin sonunda Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva uzunmüddətli və səmərəli fəaliyyətinə görə, Əlirza Balayevə universitet adından hədiyyə təqdim edib.

and Telman Nazarli extended their warm wishes to Alirza Balayev and shared their memories of him. Honoured Journalist Alirza Balayev expressed his gratitude to the university leadership for organising the ceremony, and made a point of emphasising that he would always remember Khazar University with great respect and would consider this institution of learning his true home.

At the conclusion of the ceremony, Khazar University Rector Dr. Razia Isaeva presented Alirza Balayev with a gift on behalf of the university in recognition of his long-term and productive service.





**Solmaz Rüstəmova - Tohidi**
*Tarix elmləri doktoru, professor*

# AZƏRBAYCANLI GƏNCLƏR AVROPADA: STRASBURQ SƏFƏRİNİN TƏƏSSÜRATLARI...

Hələ bir il əvvəl, Novruz bayramı günlərində Strasburqda olarkən bu şəhərdə yaşayan və çalışan soydaşlarımızın Strasburq Universitetində Azərbaycanla bağlı beynəlxalq elmi konfrans keçirmək təklifini həvəslə dəstəkləsəm də, düzü onun bu qədər tez və dəqiqliklə reallaşacağına o qədər də inanmırdım. İndi budur: Strasburq Universiteti Türkologiya fakültəsinin müəllimi Tamerlan Quliyev və təşkilatçılıq istedadı heç bir tərifə sığmayan Əligül Ağayevin təşəbbüs və zəhməti, Strasburq Universitetinin rəhbərliyinin isə birbaşa dəstəyi ilə 2026-cı il may ayının 5-də Avropanın ən qədim (1538-ci il) ali təhsil ocaqlarından biri - Strasburq Universitetində "Azərbaycanlıların Avropada akademik fəaliyyəti: elmi mübadilələr və universitetlərarası əlaqələr (XIX əsrin ikinci yarısından bu günədək)" mövzusunda ilk beynəlxalq elmi konfrans keçirilir. "İlk" – ona görə ki, konfransa dəvət almış, onun məqsəd və proqramı ilə tanış olmuş, lakin müəyyən səbəblərdən iştirak edə bilməmiş bəzi xarici həmkarlarımız bu sıradan tədbirlərin onların çalışdıqları ölkə və universitetlərdə də keçirilməsini təklif etmişlər. (Hazırda belə bir konfransın Almaniyada təşkili ətrafında artıq müzakirələr aparılır). Azərbaycan tərəfindən ciddi dəstək olarsa, gələcəyə ünvanlanmış bu layihə Avropa ölkələri və Azərbaycan arasında elm və təhsil sahəsində mahiyyət etibarilə yeni əməkdaşlıq perspektivlərinə yol açar.

Strasburq Universitetinin Beynəlxalq Tərəfdaşlıqlar üzrə vitse-prezidenti, Prof. Jan Mark Planeix Konfransın Açılış mərasimindəki nitqində də məhz bu məqamlara toxundu, azərbaycanlı gənclərin Strasburq Universitetində təhsil almaq ənənələrinin hələ XIX əsrdə qoyulduğuna və bu gün də onlarla azərbaycanlı tələbələrin timsalında davam etdirildiyinə diqqət çəkdi, bu konfransın Fransa – Azərbaycan universitetləri arasında yeni əməkdaşlıq layihələrinə əsas verəcəyinə ümidini bildirdi. Strasburq Universitetinin Türkologiya fakültəsinin əvvəlki və hazırkı dekanları – Prof. Stefan De-Tapia və Dos. Samim Akgönül də öz çıxış və məruzələrində məhz mövcud ənənələrə söykənərək, bu gün öz geosiyasi mövqeyi ilə seçilən, müsəlman Şərqində Avropayönlü modernləşmə və dövlətçilik təcrübəsi olan Azərbaycanla elm və təhsil sahəsində mübadilələrin hər iki tərəf üçün əhəmiyyətini vurğuladılar.

Azərbaycanı bu tədbirdə AMEA Akad. Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı kimi mən və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Hamlet İsaxanlı təmsil edirdik. Strasburq Universitetinin yetirməsi, hazırda Fransa-Azərbaycan Universitetinin direktoru Vazeh Əsgərov şəxsən iştirak edə bilməsə də, konfransa onlayn üzərindən məruzə ilə qatılmışdı.

Açılış mərasimində Strasburq Universiteti ilə Azərbaycan arasında elm-təhsil sahələrində mövcud ənənələrin xatırlanması heç də gəlişi xoş sözlər deyildi. XIX əsrin ortalarından başlayaraq, əsasən Rusiya İmperiyasının ali məktəblərində təhsil alan azərbaycanlı gənclərin Rus hökumətinin yaratdığı bütün maneələrə baxmayaraq, az sonra Avropa universitetlərinə də üz tutması özlüyündə çox əlamətdar hadisə idi. 1870-80-ci illərdə Avropaya yollanan hələ tək-tək azərbaycalılar arasında 21 yaşlı Mövsüm bəy Xanlarovun əvvəlcə Almaniyanın Vürtsburq, sonra Leypsiq universitetlərində yiyələndiyi texnoloq-mühəndis ixtisası ilə kifayətlənməyərək,

dərindən aludə olduğu kimya ixtisası üzrə məşhur Professor Rudolf Fittiqin sorağı ilə Strasburq Universitetinə gəlməsi sadəcə bir gəncin deyil, yəqin ki, tarixin seçimi idi. Belə ki, Mövsüm bəy Xanlarov (1857-1921) o vaxt Almaniyanın tabeçiliyində olan Strasburq Vilhelm Kayzer Universitetini bitirən sadəcə ilk azərbaycanlı tələbə deyil, həm də bu universitetdə Prof. Fittiqin elmi rəhbərliyi altında 1884-cü ildə dissertasiya müdafiə edən kimya üzrə ilk azərbaycanlı alim olub.

Mənim konfransdakı "Azərbaycanlıların Avropa universitetlərində təhsili – tarixi-faciəvi proses, yaxud gələcəyə açılan perspektivlər. (Yüz illik tarixə bir baxış. 1850 – 1950-ci illər)" mövzusunda məruzəm də elə bu ənənələrin tarixinə həsr olunmuşdu. Üç fərqli tarixi şərait - Rusiya İmperiyası, Azərbaycan Cümhuriyyəti və Sovet Azərbaycanı - və üç fərqli dövlət siyasəti fonunda azərbaycanlı gənclərin Avropa universitetlərində oxuması, Vətənə qayıdarkən yalnız aldıqları bilik və peşə vərdişlərini deyil, həm də mənimsədikləri Avropa dəyərlərini – azad, demokratik düşüncə, sərbəst fəaliyyət, təşəbbüs və işgüzarlıq kimi xüsusiyyətləri Azərbaycan mühitində tətbiq etmələri, bu işlərdə qazandıqları uğurlar, Cümhuriyyətin ölkə üçün 17 sahədə mütəxəssis yetişdirilməsinə yönəlik dövlət proqramı – Avropaya göndərilən "100 tələbə" layihəsi, və nəhayət, bolşevik-rus işğalından sonra bu nəslin əsasən acı taleyi... Bu günlərdə 75 illik yubileyini qeyd edən tanınmış alim Ədalət Tahirzadənin çox qiymətli tədqiqatları və tarixi foto-sənədlər əsasında hazırladığım bu məruzə yalnız Strasburq konfransında deyil, fikrimcə bir çox fərqli auditoriyalarda dinlənilməyə layiqdir. Belə ki, sayı yüzlərlə ölçülən azərbaycanlı gənclərin bilik dalınca ən uzaq ölkələrə getməsindən tutmuş bu yolda çəkdikləri ən ağır əzablara, maddi, fiziki, mənəvi çətinliklərə davam gətirərək xaricdə aldıqlarını Vətənə verməyə hazır olduqlarından bəhs edən bu insan hekayətləri bir neçə nəsil Azərbaycan gəncliyinin yalnız savad və peşə deyil, həm də zəngin ziyalı və vətəndaş potensialının göstəricisi idi. Bu yolda gənclərin bir qisminin hətta öz həyatlarını belə qurban verməsi isə həmin tarixə artıq faciəvi rənglər qatmışdır. (Hələ bircə nümunə: Cümhuriyyətin xaricə göndərdiyi 100 tələbədən 62 nəfəri Sovet dövrü Vətənə qayıdıb, onlardan 41 nəfəri - artıq tanınmış mütəxəssislər Stalin repressiyalarına məruz qalıb). Təbii ki, bu tarixin indiki Azərbaycan gəncliyinə ötürülməsi zəruridir. Strasburqda olduğumuz günlər bu həqiqət bir daha təsdiq olundu və bu mövzuya hələ qayıdacağam.



*Əligül Ağayev, Solmaz Rüstəmova - Tohidi, Hamlet İsaxanlı*

Lakin Strasburq universiteti ilə bağlı "ənənə" mövzusu bununla bitmirdi. Belə ki, konfrans bu universitetin 4 ən iri amfiteatrlarından birində - Fransada yaşamış məşhur soydaşımız, görkəmli türkoloq, tarixçi alim İren Melikoffun (1917-2009) adını daşıyan auditoriyada keçirilirdi və Proqrama görə ayrıca bir panel bu universitetdə Türkologiya fakültəsinin yaradıcısı kimi İren xanımın xatirəsinə həsr olunmuşdu. Həmin fakültənin müəllimi, PhD. Dos. Tamerlan Quliyevin dediyinə görə, bu universitetdə Azərbaycana aid ilk belə elmi toplantı - Fransa-Azərbaycan simpoziumu - məhz İren xanımın səyləri və görkəmli diplomat Ramiz Abutalıbovun Azərbaycan tərəfindən dəstəyi ilə hələ 1984-cü ildə keçirilmişdi. 42 ildən sonra bu faktın təkrarlanması təbii ki, vaxtilə qoyulmuş ənənənin davamı sayıla bilərdi. Mənim hələ 1990-2000-ci illərdə Bakıda və Ankarada keçirilmiş konfranslarda yaxından ünsiyyətdə olduğum unudulmaz İren xanımın xatirəsinin bu səviyyədə - onun türkoloq həmkarları, eləcə də qızı Şirin xanım Melikoff tərəfindən xoş sözlərlə anılması, göstərilən videoçarxlar konfransın gedişinə ayrıca bir ovqat qatdı.

Təbii ki, bu konfransın əsas mövzularından birini müasir təhsil sistemi, universitetlərarası əlaqələr və qarşılıqlı əməkdaşlıq proqramları təşkil edirdi. Bu baxımdan Prof. Hamlet İsaxanlının "Universitet araşdırmaları uzaq

Şərq və uzaq Qərb arasında. Azərbaycandan nəzər" mövzusunda məruzəsi olduqca böyük maraq doğurdu. Məsələyə ümumi baxışla yanaşı, Xəzər Universitetinin nümunəsində dünyanın bir çox ali məktəbləri, xüsusilə texniki elmlər sahəsində Çin universitetləri ilə əlaqələri dinləyicilərin, özəlliklə Strasburq universitetinin alim və tələbələrinin diqqətini çəkməklə, məruzəçiyə ünvanlanan müxtəlif suallarda əks olundu. Konfransdan sonra bizim, azərbaycanlı qonaqların şərəfinə verilən şam yeməyinə Türkologiya fakültəsinin müəllimləri ilə yanaşı, Strasburq universitetinin rektoru Prof. Frederik Berrot xanım və prorektoru Prof. Jan Mark Planeksin də qatılması əslində universitet rəhbərliyinin bu konfransa və Azərbaycanla əlaqələrə verilən yüksək qiymət və dəyərin təzahürü idi. Söhbət əsnasında xanım Frederik Berrotla Hamlet İsaxanlı arasında çox ciddi elmi mükaliмə yarandı, Xəzər Universiteti üzərindən Çin universitetləri ilə müştərək layihələrin mümkünlüyü müzakirə olundu və az qala, gələcək əməkdaşlığın əsası qoyuldu. Həmçinin, məlum oldu ki, prof. Jan Mark Planeks bu ilin mart ayında Xəzər Universitetinin kimya sahəsində həyata keçirdiyi bir beynəlxalq tədbirdə iştirak edib, iyun ayında yenə də Bakıya, "Xəzər"ə səfəri gözlənilir. Hamlet müəllim Strasburq universitetinin rektor və prorektorunu ayrıca olaraq Bakıya dəvət etdi və bu dəvət hər iki fransalı həmkarı tərəfindən məmnuniyyətlə qəbul olundu.



Bu səfər zamanı mən Hamlet İsaxanlının nə qədər kreativ bir rəhbər, alim və ziyalı olduğunun daha bir təsdiqini tapdım. Konfransa bizi dinləməyə gəlmiş soydaşlarımız - Strasburqun müxtəlif ali məktəblərində oxuyan, bu şəhərdə yaşayan və işləyən gənclərin sayından, fəallığından və səmimiyyətindən hədsiz şövq alan Hamlet müəllim konfransın təşkilatçıları – Əligül Ağayevə və Tamerlan Qiliyevə həmin soydaşlarımızla ayrıca olaraq bir şam yeməyi ətrafında görüşmək və ünsiyyət qurmaq arzusunu bildirdi.

Bu işıqlı gənclərimizlə həmin görüş mayın 7-də Strasburqun mərkəzində "Mişel" restoranında baş tutdu. Restoranın seçimi də təsadüfi deyildi. Onu idarə edən iki nəfərdən biri Strasburq Universitetinin Tarix fakültəsinin məzunu, Bakının Kürdəxanı kəndindən olan Hafiz adlı soydaşımız idi. Gündüzlər universitetdə oxuyan, axşamlar bir Strasburq restoranında ofisiant işləyən Hafizə vaxtilə alacağı məvacibin yarısını "Şef-Aşpaz" kurslarında oxumaqla ödəmək təklif olunmuşdu. Və Hafiz bu təklifi qəbul edərək, iki il çox çətin bir şəraitdə Fransada olduqca böyük ehtiyac duyulan ikinci peşəyə yiyələnmişdi. Universiteti bitirdikdən sonra, ixtisası üzrə iş tapmaq müşküllüyü qarşısında bu yeni peşə Hafizin işinə yaramışdı və o, hazırda artıq özü bir fransız şəriki ilə bərabər, Srtrasburqun ən məşhur kafe-restoranını işlədir. Öz soydaşları üçün 25 nəfərlik şam yeməyi məclisini də Hafiz çox layiqli şəkildə təşkil etdi.

Dostlar, 7 may Strasburqda yaşayan, çalışan, oxuyan azərbaycanlı gənclərlə bu görüşümüz Hamlet müəllimlə mənim üçün, inanın ki, həmin beynəlxalq konfransdan heç də az əhəmiyyət daşımırdı. Hamlet müəllim bu gənclərin arasından bu il təhsilini bitirib Vətənə dönəcək 2 nəfəri Xəzər Universitetinə işə dəvət edəndə, həmin gənclərin gözlərindəki sevinci görmək lazım idi! Tamerlan Quliyev də daxil olmaqla, Strasburq universitetində çalışan gənc alim və müəllimlərin "Xəzər"də onlayn dərslər aparması və digər proqramlara cəlb olunması da həmin axşam görüşünün real nəticələrindən oldu.

Mənim üçün isə, bu cavanlar və bu toplantı bir tarixçi kimi ayrıca dəyərə malik idi. Məclisdə söylədiyim çıxışda da bu görüşün heç də təsadüfdən deyil, tarixi-ənənəvi bir qanunauyğunluqdan yarandığını demək olar ki, isbat etdim. Bu cavanlarımız hələ 150 il əvvəl Avropaya ali təhsil dalınca gələn o azərbaycanlı gənclərin, Cümhuriyyətin 100 tələbəsinin sələfləri idi. Və müasir gəncliyimiz də öz xələfləri kimi avropalıların elmindən faydalanmaqla yanaşı, öz elmi və işgüzar potensiallarını istər Avropada, istərsə də öz vətənlərində təsdiq və qəbul etdirirlər. Görüşdə özlərini bir-bir təqdim edən bu ağıllı, savadlı, gözəl, vətənpərvər gənclərimizin qısa, lakin uğurlu həyat hekayətlərini dinlədikcə, xüsusilə onların arasında cənublu soydaşlarımızı da görüncə, fərəh və qürurdan qəlbimiz riqqətə gəlirdi.

## "XƏZƏR"İN TƏLƏBƏLƏRİ MUZEYLƏRDƏ

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayevanın rəhbərliyi ilə Təbiət elmləri və mühəndislik fakültəsinin birinci il tələbələri mayın 2-də Nəriman Nərimanovun Xatirə Muzeyi və Arxeologiya və Antropologiya Muzeyində olublar. Muzey əməkdaşları tələbələrə Nəriman Nərimanovun siyasi, ədəbi və həkimlik fəalliyyəti haqqında geniş məlumat veriblər. Arxeologiya və Antropologiya Muzeyində könüllü olaraq çalışan "Xəzər"in Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasının üçüncü il tələbəsi Abdul Kazımlı tələbələri Azərbaycanın Paleolit dövründən Orta əsrlərə qədər olan maddi mədəniyyət nümunələri, arxeoloji və antropoloji tapıntılarla tanış edib və tarixi-mədəni irsimizdən ətraflı danışıb.

Sonra tələbələrə İstiqlal küçəsi boyu yerləşən tarixi binalar - keçmiş Bakı Şəhər Duması, Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbi, Müqəddəs Nina qız gimnaziyası və İsmailiyyə Sarayı kimi tarixi binalar haqqında geniş məlumat verilib.

Muzeylərlə tanışlıq tələbələrin marağına səbəb olub.

## KHAZAR STUDENTS AT MUSEUMS

Under the guidance of Kamala Mustafayeva, a lecturer at the History and Archaeology Department of Khazar University, first-year students of the School of Science and Engineering visited the Nariman Narimanov Memorial Museum and the Museum of Archaeology and Anthropology on May 2. Museum staff provided students with detailed information about Nariman Narimanov's political, literary, and medical activities. Abdul Kazimli, a third-year student of the History Teaching program at the School of Humanities, Education and Social Sciences at Khazar, who volunteers at the Museum of Archaeology and Anthropology, introduced the students to examples of material culture, as well as archaeological and anthropological findings from Azerbaijan spanning the Paleolithic period through the Middle Ages, and spoke in detail about the country's historical and cultural heritage.

Students were subsequently provided with detailed information about the historic buildings situated along Istiqlal Street — including the former Baku City Duma, the Haji Zeynalabdin Taghiyev School for Girls, the Saint Nina Girls' Gymnasium, and the Ismailiyya Palace.

The museum visits generated considerable interest among the students.



## “DAXİLİ AUDİT HAQQINDA DANIŞAQ” MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "LET'S TALK ABOUT INTERNAL AUDIT"





*Nərgiz Əliyeva*

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə mayın 2-də “IIA Azerbaijan” Direktorlar Şurasının üzvləri tərəfindən İqtisadiyyat və Menecment fakültəsinin sonuncu kurs tələbələri üçün “Daxili Audit Haqqında Danışaq” mövzusunda seminar keçirildi.

Tədbirin açılışında Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva mərkəzin əsas missiyası, hədəfləri və fəaliyyət istiqamətləri barədə məlumat verərək, bildirdi ki, tələbələrin peşəkar inkişafına dəstək göstərmək, onların

On May 2, a seminar titled "Let's Talk About Internal Audit" was held for final-year students of the Faculty of Economics and Management by members of the Board of Directors of "IIA Azerbaijan," organized by the Career and Alumni Center of Khazar University.

At the opening, Zarifa Aliyeva, Director of the Career and Alumni Center of Khazar, provided info about the center's core mission, objectives, and areas of activity, stating that supporting students' professional development and ensuring their successful integration



*Zəminə Abbasova*



əmək bazarına uğurlu inteqrasiyasını təmin etmək mərkəzin prioritet məsələlərindəndir. Zərifə Əliyeva həmçinin, həyata keçirilən karyera xidmətləri, təcrübə proqramları, təlim və inkişaf layihələri barədə iştirakçıları məlumatlandırdı.

Seminarda "IIA Azerbaijan" Direktorlar Şurasının üzvləri, UniBankın Daxili Audit Departamentinin direktoru, Xəzər Universitetinin məzunu Nərgiz Əliyeva, ABC Telecom LLC-nin Daxili Audit Departamentinin direktoru Zəminə Abbasova və Azərbaycan Dəmir Yolları QSC-nın böyük auditoru, Xəzər Universitetinin məzunu Türkan Kərimova tələbələrə daxili audit funksiyasının təşkilat daxilində rolu və əhəmiyyəti haqqında geniş təqdimatlarla çıxış etdilər.

Çıxışlarda qeyd edildi ki, daxili audit yalnız nəzarət mexanizmi deyil, həm də təşkilatın korporativ idarəetmə, risklərin idarə olunmasına və nəzarət sisteminin gücləndirilməsinə töhfə verən, müstəqil, obyektiv və strateji idarəetmənin ayrılmaz hissəsidir. Eyni zamanda, daxili auditin yaratdığı dəyər, müasir yanaşmalar və Daxili Auditorlar İnstitutu (The Institute of Internal Auditors) tərəfindən təqdim olunan Qlobal Daxili Audit Standartları haqqında ümumi məlumat verildi, eləcə də sahə ilə bağlı mövcud miflər və reallıqlar müzakirə olundu.

Görüş zamanı daxili audit peşəsi üçün tələb olunan əsas kompetensiyalar, bu sahənin kənar auditdən fərqləri və karyera imkanları da tələbələrin diqqətinə çatdırıldı. İştirakçılar audit fəaliyyətinin yalnız maliyyə yoxlamaları ilə məhdudlaşmadığını, analitik düşüncə, kommunikasiya bacarıqları və risk yönümlü yanaşmanın bu sahədə uğurun əsas elementləri olduğunu öyrəndilər. Bu kontekstdə tələbələrə daxili auditin müxtəlif sahələrdə tətbiqi və təşkilat daxilində oynadığı çoxşaxəli rol praktiki nümunələrlə izah edildi.

May ayının Daxili Audit Maarifləndirmə Ayı kimi əhəmiyyəti də vurğulandı və tələbələr Daxili Auditorlar İnstitutunun (The Institute of Internal Auditors) rəsmi veb-saytı ilə tanış edildi. Onlara təqdim olunan resurslar, öyrənmə imkanları və xüsusilə, tələbələr üçün nəzərdə tutulmuş ödənişsiz üzvlük imkanları barədə məlumat verildi. Görüş çərçivəsində "IIA Azerbaijan" tərəfindən həyata keçirilən fəaliyyətlər, təşəbbüslər və peşənin ölkədə inkişafına yönəlmiş addımlar da iştirakçılarla bölüşüldü. Tədbir tələbələrə nəzəri və praktiki bacarıqlarını zənginləşdirmək üçün əlverişli imkan yaratdı.

Görüşün keçirilməsində iştirak edən spikerlərə təşəkkür edildi. Onların tələbələrlə bilik və təcrübələrini bölüşməsi, daxili audit peşəsinin daha yaxından tanıdılması və gənclərin peşəkar inkişafına töhfə verməsi xüsusi əhəmiyyət kəsb edir. Bu cür təşəbbüslər gələcək mütəxəssislərin formalaşmasına və peşənin davamlı inkişafına mühüm dəstək verir.

into the labor market are among the center's priorities. She also informed participants about the career services, internship programs, and training and development projects being implemented.

At the seminar, members of the Board of Directors of "IIA Azerbaijan" - Nargiz Aliyeva, Director of the Internal Audit Department at UniBank and a Khazar University alumna; Zamina Abbasova, Director of the Internal Audit Department at ABC Telecom LLC; and Turkan Karimova, Senior Auditor at Azerbaijan Railways CJSC and a Khazar University alumna - delivered comprehensive presentations to students on the role and significance of the internal audit function within organizations.

Speakers noted that internal audit is not merely a control mechanism, but also an independent, objective, and integral part of strategic management that contributes to an organization's corporate governance, risk management, and the strengthening of its control systems. An overview was also provided of the value created by internal audit, contemporary approaches, and the Global Internal Audit Standards issued by the Institute of Internal Auditors, and existing myths and realities surrounding the field were discussed.

During the meeting, students were also informed of the core competencies required for the internal audit profession, the differences between this field and external audit, and available career opportunities. Participants learned that audit activity is not limited to financial inspections alone, and that analytical thinking, communication skills, and a risk-oriented approach are key elements of success in the field. In this context, the application of internal audit across various sectors and its multifaceted role within organizations were explained to students through practical examples.

The significance of May as Internal Audit Awareness Month was also highlighted, and students were introduced to the official website of the Institute of Internal Auditors. They were informed about the resources and learning opportunities available, and in particular, the free membership options designed for students. Activities and initiatives undertaken by "IIA Azerbaijan," as well as steps aimed at advancing the profession in the country, were also shared with participants. The event provided students with a valuable opportunity to enrich both their theoretical and practical knowledge.

The speakers who participated in the meeting were extended gratitude. Their sharing of knowledge and experience with students, their contribution to a closer acquaintance with the internal audit profession, and their role in supporting the professional development of young people are of particular importance. Such initiatives provide significant support to the formation of future specialists and the continued advancement of the profession.




## "XƏZƏR"İN MÜƏLLİMİNİN "*BƏKİR ÇOBANZADƏ: DİL TARİXİ KONSEPSİYASI*" MONOQRAFİYASI NƏŞR OLUNUB

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Pərvin Eyvazovun "*Bəkir Çobanzadə: dil tarixi konsepsiyası*" (Bakı: "Elm" nəşriyyatı, 296 s.) adlı monoqrafiyası nəşr olunmuşdur. Birinci Türkoloji Qurultayın (1926) 100 və Əməkdar elm xadimi, "Şöhrət" ordenli, akademik Tofiq İsmayıl oğlu Hacıyevin (1936-2015) anadan olmasının 90 illik yubileyinə ithaf olunmuş monoqrafiyada görkəmli türkoloq alim, professor Bəkir Vahab oğlu Çobanzadənin elmi yaradıcılığında dil tarixi məsələləri ilk dəfə geniş şəkildə tədqiq edilmişdir. Kitabda Bəkir Çobanzadənin dil tarixinə dair elmi görüşləri dörd fəsildə, tarixi qrammatika və ədəbi dil məsələləri kontekstində şərh edilmiş, fonetik, leksik və morfoloji quruluşun tarixi inkişafına dair müxtəlif məsələlər sistemli şəkildə öyrənilmişdir. Eyni zamanda, alimin ədəbi dil konsepsiyası ətraflı araşdırılmış, ədəbi dil tarixinin dövrləşdirilməsi, ədəbi şəxsiyyətlərin dili və ümumtürk ədəbi dili haqqında baxışları çağdaş elmi fikirlərlə müqayisəli tədqiqata cəlb olunmuşdur.

Kitabın baş elmi redaktoru və "Ön söz"ün müəllifi BDU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri professor Tofiq Hacıyev, elmi redaktorları Türkologiya kafedrasının müdiri professor Məhərrəm Məmmədov və filologiya elmləri doktoru Qızılgül Abdullayeva, rəyçiləri BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professoru Reyhan Həbibli, Türkiyənin Fırat Universitetinin professorları - Ahmet Buran, Süleyman Kaan Yalçın və Kocaeli Universitetinin dosenti Kenan Acardır.

Kitabdan türkoloji dilçilik sahəsində tədris və tədqiqat aparan mütəxəssislər: professor-müəllim heyəti, gənc tədqiqatçılar, tələbələr və B.Çobanzadənin elmi irsi ilə maraqlanan hər kəs faydalana bilər

## MONOGRAPH "*BAKIR CHOBANZADE: CONCEPTION OF LANGUAGE HISTORY*" BY KHAZAR LECTURER PUBLISHED

A monograph titled "*Bakir Chobanzade: Conception of Language History*" (Baku: "Elm" Publishing House, 2026, 296 pp.) by Parvin Eyvazov, lecturer at the Department of Languages and Literatures of Khazar and Doctor of Philosophy in Philology, has been published. Dedicated to the 100th anniversary of the First Turkological Congress (1926) and the 90th birth anniversary of Honored Scientist, Order of "Shohrat" laureate, and Acad. Tofig Ismayil oglu Hajiyev (1936–2015), the monograph presents the first comprehensive study of issues related to the history of language in the scholarly work of the distinguished Turkologist and professor Bakir Vahab oglu Chobanzade. The book examines Chobanzade's scholarly views on the history of language across 4 chapters, in the context of historical grammar and literary language, with a systematic analysis of various issues pertaining to the historical development of phonetic, lexical, and morphological structures. Additionly, the scholar's conception of the literary language is explored deeply, with his views on the periodization of literary language history, the language of literary figures, and the common Turkic literary language subjected to comparative analysis in light of contemporary scholarly thought.

The chief scientific editor and author of the Foreword is Professor Tofig Hajiyev, Head of the Department of Azerbaijani Linguistics at BSU; the scientific editors are Professor Maharram Mammadov, Head of the Department of Turkology, and Doctor of Philological Sciences Gizilgul Abdullayeva; the reviewers are Professor Reyhan Habibli of the Department of Azerbaijani Linguistics at BSU, Professors Ahmet Buran and Suleyman Kaan Yalçın of Fırat University in Türkiye, and Assoc. Prof. Kenan Acar of Kocaeli University.

In this regard, the book will be of value to specialists engaged in teaching and research in the field of Turkological linguistics: faculty members, young researchers, students, and all those interested in the scholarly heritage of Chobanzade.

## TƏLƏBƏLƏR QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA



## STUDENTS AT GOBUSTAN STATE HISTORICAL AND CULTURAL RESERVE

Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov və Samirə Hadiyevanın rəhbərliyi ilə mayın 3-də Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda ekskursiyada olublar.

Ekskursiya zamanı tələbələrə Qobustanın arxeoloji baxımdan öyrənilmə tarixi, burada aparılmış tədqiqatların nəticələri və muzeydə saxlanılan zəngin arxeoloji materiallar haqqında ətraflı məlumat verilib. Müəllimlər həmçinin, tələbələri qoruğun unikal abidələri ilə tanış edib, onların elmi və mədəni əhəmiyyətindən danışıblar.

Tələbələr qayalar üzərində yüzlərlə piktoqrafik təsvirlərə baxıb, bu təsvirlərin çəkilmə texnikası, simvolik məzmunu və dünya miqyasında analoji nümunələr arasında yeri barədə müzakirə aparıblar. Bu müzakirələr tələbələrin nəzəri biliklərinin praktik müşahidələrlə möhkəmlənməsinə, həmçinin, arxeoloji irsin qorunması və öyrənilməsinin vacibliyini daha dərindən dərk etmələrinə zəmin yaradır.

Muzey və qoruqlara təşkil olunan bu cür ekskursiyalar tələbələrin elmi dünyagörüşünün formalaşmasında da mühüm rol oynayır. Onlar nəzəri dərslərdə öyrəndikləri bilikləri real tarixi abidələr üzərində tətbiq etmək imkanı qazanır, həmçinin, milli-mədəni irsə bağlılıqları artır. Xəzər Universitetində bu ənənə sistemli şəkildə davam etdirilir və tələbələrin elmi hazırlığının ayrılmaz hissəsi kimi nəzərdə tutulur.

Under the guidance of Kamala Mustafayeva, a lecturer at the History and Archaeology Department of Khazar University, first-year students of the School of Science and Engineering visited the Nariman Narimanov Memorial Museum and the Museum of Archaeology and Anthropology on May 2. Museum staff provided students with detailed information about Nariman Narimanov's political, literary, and medical activities.

Abdul Kazimli, a third-year student of the History Teaching program at the School of Humanities, Education and Social Sciences at Khazar, who volunteers at the Museum of Archaeology and Anthropology, introduced the students to examples of material culture, as well as archaeological and anthropological findings from Azerbaijan spanning the Paleolithic period through the Middle Ages, and spoke in detail about the country's historical and cultural heritage.

Students were subsequently provided with detailed information about the historic buildings situated along Istiqlal Street - including the former Baku City Duma, the Haji Zeynalabdin Taghiyev School for Girls, the Saint Nina Girls' Gymnasium, and the Ismailiyya Palace.

The museum visits generated considerable interest among the students.

## "XƏZƏR"İN TƏLƏBƏLƏRİ FESTİVALDA "ALMAZ" TAMAŞASI İLƏ

Tələbələri yaradıcılığa ruhlandırmaq, gənc istedadları aşkarlamaq, teatr mədəniyyətini təbliğ etmək və ali təhsil müəssisələri arasında yaradıcılıq mühiti formalaşdırmaq məqsədi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) təşkilatçılığı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Akademik Musiqili Teatrının tərəfdaşlığı ilə "Pillə 4" Respublika tələbə tamaşaları festivalı keçirilib.

## KHAZAR STUDENTS AT FESTIVAL WITH "ALMAZ" PERFORMANCE

The "Pillə 4" Republican Student Theatre Festival was held under the organization of the Azerbaijan State University of Culture and Arts (ASUCA), in partnership with the Ministry of Science and Education of the Republic of Azerbaijan, the Ministry of Youth and Sports of the Republic of Azerbaijan, the Ministry of Culture of the Republic of Azerbaijan, and the Azerbaijan State Academic Musical Theatre, with the aim of inspiring students toward creative pursuits, identifying young talents, promoting theatre culture, and fostering a creative environment among higher education institutions.




Festivalın açılışı mayın 4-də olub. Mayın 7-ə qədər ADMİU-nun və digər universitetlərin tələbə komandaları maraqlı səhnə ifaları ilə yarışıb. Mayın 6-da Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dəstəyi ilə tələbələr ADMİU-nun səhnəsində "Almaz" pyesi əsasında hazırlanmış tamaşanı nümayiş etdiriblər. Tamaşada Xəzər Universitetinin müxtəlif fakültələrində təhsil alan tələbələr iştirak ediblər. Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya (İngilis dili və ədəbiyyatı) ixtisasının IV kurs tələbələri Rəmalə Həsənova Almaz rolunu, Şayəstə Mələkan Xa-

The festival opened on May 4. Until May 7, student teams from ASUCA and other universities competed with compelling performances. On May 6, with the support of the School of Humanities, Education and Social Sciences of Khazar, students presented a performance based on the play "Almaz" on the ASUCA stage. The performance featured students enrolled in various faculties of Khazar. Fourth-year students of the Philology (English Language and Literature) programme of the School of Humanities, Education and Social Sciences - Ramala Hasanova portrayed the role of Almaz, and Shayesta Malakan the role of

nımnaz rolunu, Psixologiya ixtisasının II kurs tələbəsi Zəhra Fərəczadə Solmaz rolunu, Politologiya ixtisasının II kurs tələbəsi Sabir Piriyev Fuad rolunu, Tərcümə ixtisasının III kurs tələbələri Emil Qurbanbəyov Şərif rolunu, Mənzurə Qurbanlı Fatmanisə rolunu, İqtisadiyyat və menecment fakültəsinin Turizm ixtisası üzrə III kurs tələbəsi Kərim Şabanov Barat rolunu, Menecment ixtisasının I kurs tələbəsi Səbuhi Paşayev isə İbad rolunu canlandırıblar. Tərcümə ixtisasının II kurs tələbəsi Eyyub Allahyar, Xarici dil müəllimliyi ixtisasının II kurs tələbəsi Aytən Xəlil və Fizika müəllimliyi ixtisasının III kurs tələbəsi Rahilə Rüstəmova tamaşada müəllim obrazlarını təqdim ediblər. Turizm işinin təşkili ixtisasının I kurs tələbəsi Həkimxan Həsənxanlı isə işıq idarəetməsi və texniki dəstək işlərini görüb.

Tamaşanın müzakirəsi ADMİU-nun Teatrşünaslıq kafedrasının müəllimlərindən ibarət münsiflər heyətinin iştirakı ilə mayın 7-də ADMİU-da keçirilib.

Festival proqramında ümumilikdə 23 tamaşa olub. Onlardan 12-si ADMİU-nun, 11-i isə digər ali təhsil müəssisələrinin tələbə teatr kollektivlərinə məxsusdur.

Mayın 8-də festivalın bağlanış və mükafatlandırma mərasimi olub. Xəzər Universitetinin 2-ci kurs Psixologiya ixtisası tələbəsi Zəhra Fərəczadə tələbə yoldaşları ilə birgə rol aldığı “Almaz” tamaşasında göstərdiyi yüksək performansına görə, “Ən yaxşı ikinci plan qadın rolu” nominasiyası üzrə qalib seçilərək mükafata layiq görülüb.

Mərasimdə ADMİU-nun rektoru, Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudova, Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət siyasəti şöbəsinin müdiri İntiqam Babayev, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vəfa Mühacirova, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Teatr, kino və televiziya şöbəsinin müdiri, dosent Vidadi Qafarov, ADMİU Münsiflər heyətinin sədri, Teatrşünaslıq kafedrasının professoru İsrafil İsrafilov və Teatr sənəti fakültəsinin professor-müəllim heyəti çıxış ediblər.

Bədii hissədə ADMİU-nun rəqs kollektivinin rəqs kompozisiyası, ADMİU “Kamerata” tələbə orkestrinin, Musiqi sənəti fakültəsinin tələbələrinin və Mərdan Kazımovun ifaları təqdim olunub.

Khanimnaz; second-year Psychology student Zahra Farajzada portrayed the role of Solmaz; second-year Political Science student Sabir Piriyev portrayed the role of Fuad; third-year Translation Studies students Emil Gurbanbeyov and Manzura Gurbanli portrayed the roles of Sharif and Fatmansa respectively; third-year Tourism student of the School of Economics and Management Karim Shabanov portrayed the role of Barat; and first-year Management student Sabuhi Pashayev portrayed the role of Ibad. Second-year Translation Studies student Eyyub Allahyar, second-year Foreign Language Teaching student Aytan Khalil, and third-year Physics Teaching student Rahila Rustamova portrayed teacher characters in the performance. First-year Tourism Management student Hakimkhan Hasankhanli handled lighting and technical support.

The post-performance discussion was held on May 7 at ASUCA, with the participation of a jury composed of faculty members from the Theatre Studies Department.

The festival programme featured a total of 23 performances, 12 of which belonged to ASUCA's student theatre ensembles and 11 to student theatre collectives from other higher education institutions.

The closing and awards ceremony of the festival was held on May 8. Khazar University's second-year Psychology student Zahra Farajzada was named the winner in the "Best Supporting Female Role" category and received an award for her outstanding performance in the play "Almaz", in which she performed alongside her fellow students.

Speakers at the ceremony included ASUCA Rector, Honoured Art Worker, Professor Jeyran Mahmudova; Deputy Minister of Youth and Sports of the Republic of Azerbaijan Indira Hajiyeva; Head of the Arts Policy Department of the Ministry of Culture of the Republic of Azerbaijan Intiqam Babayev; Deputy Director of the Azerbaijan State Academic Musical Theatre and Doctor of Philosophy in Art Studies Vafa Muhajirova; Head of the Theatre, Cinema and Television Department of the Institute of Architecture and Arts of ANAS, Assoc. Prof. Vidadi Gafarov; Chairman of the ASUCA Jury and Professor of the Theatre Studies Department Israfil Israfilov; as well as the teaching staff of the Faculty of Theatre Arts.

The artistic programme featured a dance composition by ASUCA's dance ensemble, performances by the ASUCA "Camerata" student orchestra, students of the Faculty of Musical Arts, and Mardan Kazimov.

## “ƏDƏBİ TƏNQİD VƏ MÜASİR ƏDƏBİ PROSES” MÖVZUSUNDA İNTEQRATİV DƏRS

## INTEGRATIVE LESSON ON "LITERARY CRITICISM AND THE CONTEMPORARY LITERARY PROCESS"




*Mədinə Karahan, Akif Hüseynli, Dilbər Zeynalova*

Xəzər Universitetinin Nərimanov Kampusunun kitabxanasında Dillər və ədəbiyyatlar departamentinin “İnteqrativ dərs” layihəsi çərçivəsində mayın 5-də görkəmli ədəbiyyatşünas-tənqidçi, professor Akif Hüseynli “Ədəbi tənqid və müasir ədəbi proses” mövzusunda mühazirə demişdir. Dərsi giriş sözü ilə Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalova açmış, qonağı təqdim etmiş, mövzunun aktullağını və inteqrativ dərs layihəsinin mahiyyətini şərh etmişdir. Professor Akif Hüseynli ədəbiyyat və ədəbi tənqid arasındakı əlaqə, sənət estetikası, süni intellekt və yüksək texnologiya çağında ədəbiyyatın vəziyyəti haqda geniş çıxış etmişdir. Dərsin sonunda Azərbaycan dili və ədəbiyyatı (filologiya) və Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisaslarının tələbələri professora ədəbiyyat və ədəbi tənqidlə bağlı suallar ünvanlamış və mövzu interaktiv şəkildə müzakirə edilmişdir. Sonda professor Akif Hüseynliyə Xəzər Universitetinin təsisçisi, Dirrektorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlının “Xəzərin sorağında” kitabı və təşəkkürnamə təqdim edilmişdir.

On May 5, within the framework of the "Integrative Lesson" project of the Languages and Literatures Department, prominent literary scholar and critic Professor Akif Huseynli delivered a lecture on "Literary Criticism and the Contemporary Literary Process" at the library of Khazar University's Narimanov Campus. The lesson was opened with introductory remarks by Dilbar Zeynalova, Head of the Languages and Literatures Department and Assoc. Prof., who introduced the guest and elaborated on the relevance of the topic and the essence of the integrative lesson project. Professor Akif Huseynli delivered an extensive address on the relationship between literature and literary criticism, the aesthetics of art, and the state of literature in the age of artificial intelligence and high technology. At the end of the lesson, students majoring in Azerbaijani Language and Literature (Philology) and Azerbaijani Language and Literature Teaching posed questions to the professor on literature and literary criticism, and the topic was discussed in an interactive format. In conclusion, Professor Akif Huseynli was presented with the book "In Search of the Caspian" by Prof. Acad. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, along with a letter of appreciation.

# “ŞƏHƏRSALMA VƏ MEMARLIQ” İLİNƏ HƏSR EDİLMİŞ DƏRS

Azərbaycan Respublikası Prezidentinin 22 dekbar 2025-ci il tarixli Sərəncamına əsasən 2026-cı il “Şəhərsalma və Memarlıq ili” elan edilmişdir. Bu münasibətlə Xəzər Universitetində silsilə tədbirlər planı həyata keçirilir. Mayın 6-da universitetinin Dillər və ədəbiyyatlar departamentinin dosenti Ülvi Babasoyun dərsi “Ədəbiyyat və memarlıq” mövzusuna həsr olunmuşdur. Dos. Ülvi Babasoy memarlıq və ədəbiyyata multidisplinar kontekstdə yanaşmış, bu iki fərqli sənət disiplinini vahid estetik çətir altına yığan tendensiyalar tələbələrin sualları ilə geniş şəkildə müzakirə edilmişdir. Narrativ memarlıq mövzusu tələbələrin diqqətini cəlb etmiş, memarlıq və ədəbiyyatın özünüifadə üsulları təhlil edilmişdir. Bakı və Qarabağ memarlığının Azərbaycan ədəbiyyatında inikası da müzakirəyə cəlb edilmişdir.

# LESSON DEDICATED TO YEAR OF "URBAN PLANNING AND ARCHITECTURE"

By decree of the President of the Republic of Azerbaijan dated December 22, 2025, the year 2026 has been declared the "Year of Urban Planning and Architecture." Regarding this, a series of events is being carried out at Khazar. On May 6, a lesson taught by Assoc. Prof. Ulvi Babasoy, lecturer of Department of Languages and Literatures, was dedicated to the topic of "Literature and Architecture." Assoc. Prof. Babasoy approached architecture and literature from a multidisciplinary perspective, and the tendencies bringing these two distinct artistic disciplines under a single aesthetic framework were discussed through student questions. The subject of narrative architecture attracted students' attention, and the means of self-expression in architecture and literature were analysed. The reflection of Baku and Karabakh architecture in Azerbaijani literature was also brought into discussion.



*Ülvi Babasoy*



# XƏZƏR UNİVERSİTETİNDƏ MƏZUN GÖSTƏRİCİLƏRİ: ARTIM DİNAMİKASI, GENDER BALANSI VƏ QLOBAL TRENDLƏR (SON 5 TƏDRİS İLİ ÜZRƏ)

Müasir ali təhsil sistemində statistik göstəricilər ali təhsil müəssisələrin inkişaf dinamikasını, strateji prioritetlərini və sosial-iqtisadi təsir potensialını qiymətləndirmək baxımından mühüm analitik indikatorlar hesab olunur. Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzi tərəfindən təqdim edilən son beş tədris ilini əhatə edən məzun statistikası universitetin həm kəmiyyət, həm də keyfiyyət aspektlərində ardıcıl və davamlı inkişaf tendensiyası nümayiş etdirdiyini göstərir. Təhlil olunan göstəricilər universitetin akademik potensialının genişlənməsini, əmək bazarının dəyişən tələblərinə uyğun insan kapitalının hazırlanmasını, eləcə də gender balansı və inklüzivlik prinsiplərinin institusional səviyyədə uğurla tətbiq olunduğunu təsdiq edir.

Ümumi məzun sayında artım: davamlı inkişaf göstəricisi

2020/2021–2024/2025-ci tədris illəri üzrə aparılan təhlil göstərir ki, universitetdə məzun sayında sabit və artan dinamika müşahidə olunur. **(Cədvəl 1, 2)**

• Bakalavr səviyyəsində məzun sayı 373 nəfərdən 589 nəfərə yüksələrək, təxminən 58% artım göstərmişdir **(Cədvəl 1)**

• Magistratura səviyyəsində məzun sayı 87 nəfərdən 185 nəfərə yüksələrək iki dəfədən artıq (1,13) artım göstərmişdir. **(Cədvəl 1)**

**Cədvəl 1**

| Təhsil səviyyələri üzrə kişi/qadın məzun sayı | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Tədris ili** | **Bakalavr(K)** | **Bakalavr(Q)** | **Ümumi (Bakalavr)** | **Magistr (K)** | **Magistr (Q)** | **Ümumi (Magistr)** |
| **2020/2021** | **156** | **217** | **373** | **26** | **61** | **87** |
| **2021/2022** | **157** | **281** | **438** | **34** | **65** | **99** |
| **2022/2023** | **138** | **290** | **428** | **50** | **93** | **143** |
| **2023/2024** | **174** | **332** | **506** | **64** | **132** | **196** |
| **2024/2025** | **185** | **404** | **589** | **57** | **128** | **185** |
| **Ümumi (illər üzrə)** | **810** | **1524** | **2334** | **231** | **479** | **710** |
| **Ümumi (5 tədris ili üzrə)** | | | | | | **3044** |

**Cədvəl 2**

| Fakültələr üzrə ümumi məzun sayı | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fakültə | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 | 2024/2025 | Ümumi |
| Təbiət elmləri və mühəndislik | 126 | 151 | 146 | 178 | 194 | 795 |
| İqtisadiyyat və menecment | 83 | 84 | 67 | 56 | 86 | 376 |
| Humanitar, təhsil və sosial elmlər | 164 | 203 | 215 | 272 | 309 | 1163 |
| İqtisadiyyat və biznes yüksək təhsil | 38 | 55 | 89 | 117 | 125 | 424 |
| Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil | 49 | 44 | 54 | 79 | 60 | 286 |
| Ümumi | 460 | 537 | 571 | 702 | 774 | 3044 |

Qeyd olunan artım aşağıdakı strateji faktorlarla izah oluna bilər:
• yeni təhsil proqram və ixtisasların formalaşdırılması;
• universitetin institusional nüfuzunun və akademik cəlbediciliyinin artması;
• əmək bazarına uyğun kadr hazırlığının aparılması və s.
Bu göstəricilər universitetin dayanıqlı inkişaf modelinə malik olduğunu göstərir.
Gender balansı: qadın məzunların artan payı
Faiz hesablamaları göstərir ki, qadın məzunların ümumi məzunlar içində payı son illərdə əhəmiyyətli dərəcədə artmışdır: **(Cədvəl 1)**
• Bakalavr səviyyəsində qadınların payı 58%-dən 68.5%-ə yüksəlmişdir.
• Magistratura səviyyəsində bu göstərici bəzi illərdə 67%-ə qədər çatmışdır.
Bu artım qadınların ali təhsilə çıxış imkanlarının genişlənməsi, əmək bazarında ixtisaslı qadın kadrlarına tələbatın artması, eləcə də gender bərabərliyini təşviq edən institusional və sosial siyasətlərin güclənməsi ilə izah oluna bilər.
Sahələr üzrə transformasiya: stereotiplərin aşılması
Son illərdə müşahidə olunan əsas tendensiyalardan biri qadınların ixtisas seçimi prioritetlərində baş verən dəyişikliklərdir. Ənənəvi olaraq müəyyən sahələrdə müşahidə olunan gender bölgüsü tədricən zəifləyir. **(Cədvəl 3, 4)**
**Xüsusilə:**
• Mühəndislik istiqamətləri üzrə qadın məzunların sayında artım müşahidə olunur. Bu, STEM sahələrində qadın iştirakının genişlənməsi baxımından mühüm göstəricidir.




• İqtisadiyyat və idarəetmə sahələrində də qadınların payının artması diqqət çəkir. Bu sahələrdə artıq qadınlar yalnız iştirakçı deyil, əsas çoxluğu təşkil edən qruplardan birinə çevrilməkdədir.






**Cədvəl 3**

| Fakültələr üzrə (K) | | | | | | |
|---|---|---|---|---|---|---|
| **İxtisaslar** | **2020/21** | **2021/22** | **2022/23** | **2023/24** | **2024/25** | **Ümumi** |
| Təbiət Elmləri və Mühəndislik | 72 | 75 | 71 | 81 | 74 | 373 |
| İqtisadiyyat və menecment | 48 | 46 | 38 | 31 | 54 | 217 |
| Humanitar, Təhsil və Sosial elmlər | 36 | 36 | 29 | 62 | 57 | 220 |
| İqtisadiyyat və biznes yüksək təhsil | 18 | 20 | 35 | 41 | 47 | 161 |
| Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil | 8 | 14 | 15 | 23 | 10 | 70 |
| **Ümumi say** | **182** | **191** | **188** | **238** | **242** | **1041** |

**Cədvəl 4**

| Fakültələr üzrə (Q) | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 | 2024/2025 | Ümumi |
| Təbiət Elmləri və Mühəndislik | 54 | 76 | 75 | 97 | 120 | 422 |
| İqtisadiyyat və menecment | 35 | 38 | 29 | 25 | 32 | 159 |
| Humanitar, Təhsil və Sosial elmlər | 128 | 167 | 186 | 210 | 252 | 943 |
| İqtisadiyyat və biznes yüksək təhsil | 20 | 35 | 54 | 76 | 78 | 263 |
| Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil | 41 | 30 | 39 | 56 | 50 | 216 |
| **Ümumi say** | **278** | **346** | **383** | **464** | **532** | **2003** |

Bu dəyişikliklər aşağıdakı amillərlə əlaqələndirilə bilər:
- gənc qadınların peşə seçimində artan ambisiyası;
- əmək bazarında gender bərabərliyinə yönəlik təşviqlər;
- universitet daxilində inklüziv və dəstəkləyici mühit və s.

Magistratura səviyyəsində artım: ixtisaslaşmaya yönəlmə

Statistik təhlil göstərir ki, magistratura səviyyəsində də ciddi artım müşahidə olunur. Xüsusilə 2022–2024-cü illər arasında məzun sayında sıçrayış baş vermişdir. (Cədvəl 1)

Bu tendensiya aşağıdakı reallıqları əks etdirir:
- Ali təhsilin davamlılığına marağın artması: bakalavr məzunlarının əmək bazarında rəqabət üstünlüyü əldə etmək üçün təhsillərini magistratura səviyyəsində davam etdirməsi;
- Əmək bazarının tələbləri: bir çox sahələrdə (xüsusilə iqtisadiyyat, idarəetmə, təhsil və texnologiya) magistr dərəcəsinə olan tələbin artması;
- Karyera perspektivləri: daha yüksək vəzifələrə çıxış və maaş üstünlükləri üçün magistr təhsilinə üstünlük verilməsi;
- Təhsil imkanlarının genişlənməsi: yeni ixtisasların açılması və proqramların diversifikasiyası;
- Dövlət və institusional təşviqlər: təhsilin davamlılığını dəstəkləyən siyasətlər və təqaüd imkanlarının artması;
- Beynəlxalq inteqrasiya: xaricdə təhsil və akademik mobillik imkanlarının genişlənməsi, magistr təhsilinə marağı artırması və s.

*Beynəlxalq kontekst və müqayisəli təhlil*

Dünya praktikasında ali təhsil üzrə aparılan tədqiqatlar göstərir ki, qadınların ali təhsildə iştirakı son onillikdə əhəmiyyətli dərəcədə artmışdır. UNESCO və World Bank kimi beynəlxalq qurumların hesabatlarına əsasən:
- qadınlar bir çox ölkədə ali təhsildə say üstünlüyünə malikdir

• STEM və iqtisadiyyat sahələrində qadın iştirakında artım müşahidə olunur. UNESCO-nun son hesabatları göstərir ki, qadınların elm və STEM sahələrində iştirakı qlobal miqyasda artma tendensiyası nümayiş etdirir. Bununla belə, bu artım sahələr üzrə bərabər paylanmamışdır və xüsusilə mühəndislik və kompüter elmləri kimi texniki istiqamətlərdə gender fərqi hələ də nəzərəçarpacaq səviyyədə qalmaqdadır.

• inklüziv təhsil modelləri universitetlərin əsas inkişaf istiqamətlərindən birinə çevrilmişdir

Xəzər Universitetində müşahidə olunan göstəricilər bu qlobal tendensiyalarla tam uyğunluq təşkil edir. (Cədvəl 5, 6)

**Cədvəl 5**




**Cədvəl 6**




Statistik göstəricilərin interpretasiyası

Aparılan təhlil göstərir ki, müşahidə olunan artım yalnız kəmiyyət göstəricisi deyil, struktur dəyişikliklərini də əks etdirir. Xüsusilə:

1. Gender balansının dəyişməsi – qadınların ali təhsildə üstünlük təşkil etməsi sosial və iqtisadi transformasiyanın göstəricisidir;
2. İxtisas seçiminin diversifikasiyası – qadınların mühəndislik və iqtisadiyyat kimi sahələrə yönəlməsi əmək bazarının gələcək strukturuna təsir göstərəcək;
3. Magistratura səviyyəsinin güclənməsi – bu, bilik iqtisadiyyatına keçidin əsas indikatorlarından biridir

Bu baxımdan, Xəzər Universitetində müşahidə olunan inkişaf yalnız institusional deyil, həm də cəmiyyətin ümumi inkişaf tendensiyalarının əksidir.

Nəticə

Son 5 ilin statistik göstəricilərinə və aparılmış faiz təhlilinə əsaslanaraq belə nəticəyə gəlmək mümkündür ki, Xəzər Universiteti institusional inkişaf baxımından ardıcıl və dayanıqlı yüksəliş dinamikası nümayiş etdirir. Bu tendensiya bir neçə mühüm istiqamətdə özünü göstərir:

• universitet məzunlarının ümumi sayında davamlı artım müşahidə olunur ki, bu da təhsil xidmətlərinə artan tələb və akademik mühitin cəlbediciliyinin yüksəlməsi ilə əlaqələndirilə bilər;
• gender balansının təmin olunması istiqamətində sistemli yanaşma formalaşmış, qadın və kişi tələbələrin təhsil prosesində iştirakı daha tarazlı xarakter almışdır;
• qadınların yalnız ənənəvi deyil, eyni zamanda iqtisadiyyat, idarəetmə, texnologiya və digər strateji əhəmiyyətli sahələrdə iştirakının genişlənməsi müşahidə olunur ki, bu da ixtisas seçimi davranışlarında müasir tendensiyaların formalaşdığını göstərir;
• universitetin inkişaf strategiyası qlobal təhsil məkanında baş verən transformasiyalarla uyğunlaşdırılaraq beynəlxalq rəqabətqabiliyyətliliyin artırılmasına yönəlmişdir.

Ümumilikdə, bu göstəricilər Xəzər Universitetinin təkcə akademik nəticələr baxımından deyil, həm də sosial məsuliyyət, inklüzivlik və dayanıqlı inkişaf prinsiplərinə sadiqlik kontekstində strateji mövqeyini gücləndirdiyini nümayiş etdirir.

**Zərifə Əliyeva**
*Karyera və Məzunlar Mərkəzinin direktoru*
**Günel Kərimova**
*Karyera və Məzunlar Mərkəzinin assistenti*

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




## LEYLA HƏSƏNZADƏNİN "*ALMAN BƏDİİ ƏDƏBİYYATININ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ POETİKA VƏ MİLLİ KOLORİT PROBLEMLƏRİ*" KİTABI NƏŞR OLUNUB

Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Leyla Həsənzadənin "*Alman bədii ədəbiyyatının Azərbaycan dilinə tərcüməsində poetika və milli kolorit problemləri*" kitabı nəşr olunub. Kitab Ədəbiyyat İnstitutunun Elmi Şurasının 9 dekabr 2025-ci il tarixli 7 saylı qərarı ilə çap edilib.

Məqalələr toplusunun redaktoru və ön sözün müəllifi filologiya elmləri doktoru, dosent Lyudmila Səmədovadır. Kitabın rəyçiləri filologiya üzrə fəlsəfə doktorları, dosentlər Cavidə Məmmədova və Xanım Zairovadır.

152 səhifədən ibarət monoqrafiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. "Bədii tərcümə və alman-Azərbaycan ədəbi əlaqələrinin inkişaf mərhələləri", "Alman ədəbiyyatının Azərbaycan dilinə tərcümələrində milli kolorit", "Alman bədii nəsri Azərbaycan dilində" başlıqlı fəsillərin hər biri bir neçə yarımfəslə bolünür.

# *"MƏTBUAT TARİXİ VƏ PUBLİSİSTİKA MƏSƏLƏLƏRİ"* KİTABININ ÜÇÜNCÜ CİLDİ ÇAP OLUNUB




Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsi tərəfindən "*Mətbuat tarixi və publisistika məsələləri*" kitabının üçüncü cildi nəşr edilib. Toplu Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 mart 2026-ci il tarixli 2 saylı qərarı ilə çap olunub.

Nəşrin elmi redaktoru və "Ön söz"ün müəllifi Mətbuat tarixi və publisistika şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Vüqar Əhmədbəyli. Tərtibçisi həmin şöbənin elmi işçisi Leyla Məmmədovadır. Kitabın rəyçiləri filologiya elmləri doktorları Cahangir Məmmədli və Gülbəniz Babayevadır.

Kitabda institut və şöbənin elmi əməkdaşlarının "Şərqi-Rus", "Molla Nəsrəddin", "Səda", "Elm və həyat" və başqa mətbuat orqanları, mətbuat xadimləri haqqında yeni faktlar və sənədlər əsasında yazılmış məqalələri yer alıb. Məqalələr filologiya elmləri doktorları Vüqar Əhməd, Elçin Mehrəliyev, Gülbəniz Babayeva, həmçinin, filologiya üzrə fəlsəfə doktorları Rauf Sadıxov, Elmira Qasımova, Gülnar Səma tərəfindən yazılıb. Eyni zamanda, kitabda şöbənin elmi işçiləri Dilbər Rzayeva, Şahanə Məmmədova Köçərli, Leyla Məmmədova, Samirə Kərimova və Hacıməhəmməd Mahmudovun da mövzu ilə bağlı məqalələri çap olunub.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ CHITRAL UNİVERSİTETİNİN PROREKTORU XƏZƏR UNİVERSİTETİNDƏ



Məhəmməd Nuriyev



Hazir Ullah



Hafiz Muhammad Azeem Akram

## VICE-RECTOR OF UNIVERSITY OF CHITRAL OF ISLAMIC REPUBLIC OF PAKISTAN VISIT KHAZAR UNIVERSITY

Xəzər Universitetində Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə mayın 6-da Pakistan İslam Respublikasının Chitral Universitetinin prorektoru Dr. Hazir Ullah ilə görüş keçirilib.

Görüşdə Chitral Universitetini Dr. Hazir Ullah təmsil edib. Xəzər Universitetindən isə Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, fakültə və şöbə nümayəndələri, eləcə də Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları iştirak ediblər.

Tərəflər arasında keçirilən müzakirələr zamanı universitetlərarası əməkdaşlıq imkanları, təhsil fürsətləri, mübadilə proqramları müzakirə edilib, həmçinin, gələcəkdə həyata keçirilə biləcək birgə layihələr barədə fikir mübadiləsi aparılıb.



On May 6, a meeting was held at Khazar University with Dr. Hazir Ullah, Vice-Rector of the University of Chitral of the Islamic Republic of Pakistan, organized by the International Relations Office.

The University of Chitral was represented by Dr. Hazir Ullah. Khazar University was represented by Vice-Rector for Academic Affairs Prof. Mahammad Nuriyev, faculty and department representatives, as well as staff members of the International Relations Office.

During the discussions held between the parties, inter-university cooperation opportunities, educational prospects, and exchange programs were addressed, and views were also exchanged on potential joint projects to be implemented in the future.



## “XƏZƏR”DƏ “SİMSİZ RABİTƏDƏ YARANAN YENİ TENDENSİYALAR VƏ TEXNOLOGİYALAR” MÖVZUSUNDA SEMİNAR




*Yusif Şamayev*



## SEMINAR ON "EMERGING TRENDS AND TECHNOLOGIES IN WIRELESS COMMUNICATIONS" HELD AT KHAZAR UNIVERSITY

Xəzər Universitetində mayın 7-də “Simsiz rabitədə yaranan yeni tendensiyalar və texnologiyalar” adlı seminar keçirilib.

Seminar Azərbaycan Respublikasının Kosmik Agentliyində RT Sistem mühəndisi vəzifəsində çalışan Yusif Şamayev tərəfindən təqdim olunub.

Tədbirdə universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Seminarda simsiz rabitə texnologiyalarında müşahidə olunan yeni tendensiyalar, müasir kommunikasiya sistemləri, 5G texnologiyası, IoT (Əşyaların interneti) və gələcək nəsil simsiz şəbəkələrin inkişaf perspektivləri haqqında ətraflı məlumat verilib.

Məruzə zamanı simsiz kommunikasiya sahəsində tətbiq olunan innovativ texnologiyalar, məlumat ötürülməsində sürət və etibarlılığın artırılması yolları, həmçinin, bu sahədə mövcud texniki çağırışlar barədə interaktiv müzakirələr aparılıb. Müasir rabitə sistemlərinin sənaye, kosmik texnologiyalar və gündəlik həyatda tətbiq imkanları iştirakçıların diqqətinə çatdırıb.

Mövzu ətrafında fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

A seminar titled "Emerging Trends and Technologies in Wireless Communications" was held at Khazar University on May 7.

The seminar was presented by Yusif Shamayev, an RT Systems Engineer at the Space Agency of the Republic of Azerbaijan.

The event was attended by the university's faculty members and students. The seminar provided a comprehensive overview of emerging trends in wireless communication technologies, modern communication systems, 5G technology, IoT (Internet of Things), and the development prospects of next-generation wireless networks.

During the presentation, interactive discussions were held on innovative technologies applied in the field of wireless communications, methods for increasing data transmission speed and reliability, as well as existing technical challenges in the field. Participants were also informed about the potential applications of modern communication systems in industry, space technologies, and everyday life.

An exchange of views on the subject took place, and questions from the participants were addressed.

# PENSİLVANİYA DÖVLƏT UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

Xəzər Universiteti Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və Neft mühəndisliyi departamentinin təşkilatçılığı ilə doktorant Nicat Qasımlının mayın 7-də “Səthi aktiv maddənin inyeksiyasının əsasları” mövzusunda seminarı olub.

N. Qasımlı “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Amerika Birləşmiş Ştatlarının Pensilvaniya Dövlət Universitetində “Enerji və Mineral Mühəndisliyi” ixtisası üzrə doktorantura təhsili alır.

Seminarda “Artırılmış Neft Hasilatı” (Enhanced Oil Recovery – EOR) sahəsində ən perspektivli kimyəvi üsullardan biri hesab olunan səthi-aktiv maddələrdən (surfaktantlardan) istifadə etməklə neft hasilatının artırılmasının fiziki mexanizmləri təqdim olunub. Seminarın əsas məqsədi neft laylarında qalıb saxlanılan neftin çıxarılması prosesinin arxasında duran mürəkkəb elmi prinsipləri tələbələrə sadə, aydın və praktik şəkildə izah etmək idi.

Məruzə zamanı surfaktantların hazırlanma prinsipləri, onların optimal kimyəvi tərkibinin duzluluq, temperatur və lay xüsusiyyətləri kimi amillərdən asılılığı ətraflı şəkildə izah edilib. Eyni zamanda, mühəndislərin namizəd reagentləri sahə tətbiqindən əvvəl laboratoriya şəraitində necə sınaqdan keçirdiyi və qiymətləndirdiyi barədə məlumat verilib.

Seminarda tələbələr surfaktant əsaslı neft hasilatının artırılması layihələrinin laboratoriya mərhələsindən sahə tətbiqinədək keçdiyi inkişaf prosesini, eləcə də bu layihələrin uğur və ya uğursuzluğunu müəyyən edən əsas texniki və iqtisadi amilləri daha dərindən anlama imkanı əldə ediblər.

# SEMINAR BY DOCTORAL STUDENT STUDYING AT PENNSYLVANIA STATE UNIVERSITY

Khazar University's Graduate School of Science, Art and Technology and the Department of Petroleum Engineering hosted a seminar by doctoral student Nijat Gasimli on May 7, on the topic of "Fundamentals of Surfactant Injection."

Gasimli is pursuing doctoral studies in "Energy and Mineral Engineering" at Pennsylvania State University in the United States under a trilateral agreement with the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University, within the framework of the "State Program on Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019–2023."

The seminar presented the physical mechanisms of enhanced oil recovery using surfactants, considered one of the most promising chemical methods in the field of Enhanced Oil Recovery (EOR). The primary objective of the seminar was to explain to students, in a clear, accessible, and practical manner, the complex scientific principles underlying the process of extracting residual oil trapped in reservoirs.

During the presentation, the principles of surfactant formulation were elaborated in detail, along with the dependence of their optimal chemical composition on factors such as salinity, temperature, and reservoir characteristics. Information was also provided on how engineers test and evaluate candidate reagents under laboratory conditions prior to field application.

The seminar gave students the opportunity to gain a deeper understanding of the development process that surfactant-based enhanced oil recovery projects undergo from the laboratory stage through to field application, as well as the key technical and economic factors that determine the success or failure of such projects.

## GIRNE AMERİKAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ



*Celal Sakka, Serdar Yurtsever, Aylin Ayhan, Almula Umay Karamanlıoğlu*

## DELEGATION FROM AMERICAN UNIVERSITY OF KYRENIA VISIT KHAZAR

Mayın 8-də Xəzər Universitetində Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə Şimali Kipr Türk Respublikasının Girne Amerikan Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə Girne Amerikan Universitetinin rektoru Prof. Dr. Serdar Yurtsever, baş katib Aylin Ayhan, rektorun köməkçisi və müşaviri Celal Sakka, Biznesin idarə edilməsi fakültəsinin dosentləri Fatih Dikmen və Almula Umay Karamanlıoğlu iştirak ediblər. Xəzər Universitetini Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı Dr. İnqilab Əhmədov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Dilarə Rəsulova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Dr. Firuz Süleymanov təmsil ediblər.

Tərəflər arasında keçirilən görüşdə universitetlərarası əməkdaşlığın genişləndirilməsi, tələbə və akademik mübadilə imkanlarının artırılması, eləcə də gələcək birgə fəaliyyət perspektivləri ətrafında müzakirələr aparılıb.



*Firuz Süleymanov, İnqilab Əhmədov, Məhəmməd Nuriyev, Dilarə Rəsulova, Lyudmila Sotova*

On May 8, a meeting was held at Khazar University with a delegation from the American University of Kyrenia of the Turkish Republic of Northern Cyprus, organized by the International Relations Office.

The delegation from the American University of Kyrenia included Rector Prof. Dr. Serdar Yurtsever, Secretary General Aylin Ayhan, Rector's Assistant and Advisor Celal Sakka, and Associate Professors of the Faculty of Business Administration Fatih Dikmen and Almula Umay Karamanlıoğlu. Khazar University was represented by Vice-Rector for Academic Affairs Prof. Mahammad Nuriyev, Director of the Quality Assurance Center Lyudmila Sotova, Dean of the School of Economics and Business Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management Dr. Dilara Rasulova, and Head of the International Relations Office Dr. Firuz Suleymanov.

During the meeting, discussions were held on expanding inter-university cooperation, increasing student and academic exchange opportunities, as well as prospects for future joint activities.

## XƏLİFƏ UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

Xəzər Universiteti Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və Neft mühəndisliyi departamentinin təşkilatçılığı ilə doktorant Mürsəl Zeynallının mayın 8-də "Neftvermə əmsalının artırılması" mövzusunda seminarı olub.

M. Zeynallı "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Birləşmiş Ərəb Əmirliklərinin Xəlifə Universitetində (Khalifa University) "Neft-qaz mühəndisliyi" ixtisası üzrə doktorantura təhsili alır.

Seminar zamanı ilkin və ikincili neftçıxarma mərhələlərindən sonra tətbiq olunan EOR texnologiyalarının əhəmiyyəti izah edilib, suvurmanın səmərəliliyi, neftvermə əmsalı, hərəkətlilik nisbəti, qalıq və kənarda qalmış neft anlayışları ətraflı şəkildə müzakirə olunub. Təqdimatda termal EOR, qaz vurulması, həmçinin, polimer, səthi-aktiv maddə, qələvi, SP, ASP və köpük əsaslı kimyəvi EOR üsulları haqqında sistemli məlumat verilib. Xüsusilə, bu metodların layda süpürmə və yerdəyişmə səmərəliliyini artırmaq, qalıq neft miqdarını azaltmaq və mövcud yataqların daha səmərəli işlənməsini təmin etmək baxımından rolu vurğulanıb. Seminar tələbələrə neft-qaz mühəndisliyi üzrə nəzəri bilikləri real neft yataq tətbiqləri və müasir tədqiqat istiqamətləri ilə əlaqələndirmək imkanı yaradıb.

## SEMINAR BY DOCTORAL STUDENT STUDYING AT KHALIFA UNIVERSITY

A seminar on "Enhanced Oil Recovery" was held on May 8, by doctoral student Mursal Zeynalli, organized by Graduate School of Science, Art and Technology and the Petroleum Engineering Department of Khazar University.

Zeynalli is pursuing doctoral studies in Petroleum and Gas Engineering at Khalifa University of the United Arab Emirates, under a trilateral agreement with the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University, within the framework of the "State Programme on Increasing the International Competitiveness of the Higher Education System of the Republic of Azerbaijan for 2019–2023."

During the seminar, the significance of EOR (Enhanced Oil Recovery) technologies applied following primary and secondary oil recovery stages was explained, and the concepts of sweep efficiency, recovery factor, mobility ratio, residual oil, and bypassed oil were discussed in detail. The presentation provided a systematic overview of thermal EOR, gas injection, as well as chemical EOR methods including polymer-, surfactant-, alkaline-, SP-, ASP-, and foam-based techniques. Particular emphasis was placed on the role of these methods in improving areal and displacement efficiency, reducing residual oil saturation, and ensuring more effective development of existing reservoirs. The seminar provided students with an opportunity to connect theoretical knowledge in petroleum and gas engineering with real-world reservoir applications and contemporary research directions.

## ƏMƏKDAŞLAR “ÇİN DİLİ KÖRPÜSÜ” BEYNƏLXALQ MÜSABİQƏSİNDƏ

## STAFF MEMBERS AT "CHINESE BRIDGE" INTERNATIONAL COMPETITION



*Nigar Tağıyeva, Fərqanə Ələsgərli, Dilbər Zeynalova, Lu Mey, Nərgiz Kərimova*

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri dos. Dilbər Zeynalova, Çin dili müəllimi fil.ü.f.d.Nərgiz Kərimova və departamentin əməkdaşı Fərqanə Ələsgərli mayın 25- də keçirilən XXV “Çin dili körpüsü” beynəlxalq müsabiqəsinin Azərbaycan üzrə final mərhələsində qonaq qismində iştirak ediblər. Konfutsi İnstitutu və Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqə yazılı test, mövzu üzrə çıxışlar və istedad nümayişlərindən ibarət olub. Tədbirdə çıxış edən Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey bildirib ki, “Çin dili körpüsü” müsabiqəsi uzun illərdir Azərbaycanda keçirilir və iki ölkə arasında qarşılıqlı anlaşmanın gücləndirilməsinə töhfə verir. O, həmçinin, çin dili təhsilinin inkişafı istiqamətində əməkdaşlığın davam etdiriləcəyini vurğulayıb.

Dilbar Zeynalova, Associate Professor and Head of the Department of Languages and Literatures at Khazar University, Chinese language instructor and PhD in Philology Nargiz Karimova, and department staff member Fargana Alasgarli attended as guests the Azerbaijan final stage of the 25th "Chinese Bridge" international competition, held on May 25. Organised jointly by the Confucius Institute and the Embassy of the People's Republic of China in Azerbaijan, the competition comprised a written test, thematic presentations, and talent performances. Addressing the event, Ambassador Extraordinary and Plenipotentiary of China to Azerbaijan Lu Mei stated that the "Chinese Bridge" competition has been held in Azerbaijan for many years and contributes to strengthening mutual understanding between the two countries. She also emphasised that cooperation in the development of Chinese language education would continue.

## II TÜRK TAMĞALARININ ÇAĞDAŞLAŞDIRILMASI KONFRANSI

Xəzər Universiteti Tarix və arxeologiya departamenti və Türk Dili Dərnəyinin birgə təşkilatçılığı ilə mayın 1-də Bakıda II Türk Tamğalarının Çağdaşlaşdırılması Konfransı keçirilib. Türk dünyasının ortaq mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyan bu tədbir həm elmi, həm də strateji baxımdan diqqətçəkən nəticələrlə yadda qalıb.




*Telman Nüsrətoğlu*

Konfransın açılışında çıxış edən Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri, dosent Telman Nüsrətoğlu tədbirin əhəmiyyətini vurğulayaraq, Türk tamğalarının tədqiqi və çağdaşlaşdırılmasının Türk dünyasının ortaq elmi irsi baxımından strateji məsələ olduğunu qeyd edib. O, Azərbaycanın bu istiqamətdə elmi təşəbbüslərə ev sahibliyi etməsinin xüsusi önəm daşıdığını bildirib. Türk Dili Dərnəyinin başqanı Göybəy Uluç Türk tamğalarının yalnız tarixi yazı sistemi deyil, eyni zamanda Türk kimliyinin mədəni yaddaşı olduğunu vurğulayaraq, bu sahədə aparılan işlərin ortaq türk elmi əməkdaşlığını gücləndirdiyini qeyd edib. Yunus Emre İnstitutu Bakı nümayəndəliyinin müdiri Gökhan Seyhan isə çıxışında Türk dünyası ölkələri arasında mədəni əlaqələrin inkişafında ortaq layihələrin rolunu qeyd edib və bu kimi elmi tədbirlərin davamlı olmasının vacibliyini vurğulayıb.

Konfransda Türkiyədən və müxtəlif Türk dövlətlərindən tanınmış alimlər, tədqiqatçılar və mütəxəssislər iştirak ediblər. Tədbiri nüfuzlu elm xadim-

## II CONFERENCE ON MODERNIZATION OF TURKISH TAMGAS

II Conference on the Modernization of Turkic Tamgas was held in Baku on May 1, jointly organized by the Department of History and Archaeology at Khazar and the Turkic Language Association. The event, which carries significant importance in terms of preserving the common cultural heritage of the Turkic world and transmitting it to future generations, left a




*Göybəy Uluç*

lasting impression with outcomes that were notable both scientifically and strategically.

Speaking at the opening ceremony, Assoc. Prof. Telman Nusratoglu, Head of the Department of History and Archaeology at Khazar University, emphasized the significance of the event, noting that the



*Erhan Aydın*

lərindən Prof. Erhan Aydın, Prof. Hatice Şirin, Dos. Mihriban Aydın, Beynəlxalq Türk Akademiyasının rəsmi təmsilçisi Dr. Nurdin Useev, Xəzər Universitetindən Dr. Odər Əlizadə, AMEA Dilçilik İnstitutundan Dr. Dilbər Cəmali və E.Mövlamov adına Əbilyataq kənd tam orta məktəbinin müəllimi Gü-



*Hatice Şirin*

nay Mirzəyeva kimi araşdırmaçılar öz məruzələri ilə zənginləşdiriblər. İştirakçılar Türk tamğalarının tarixi inkişafı, semantik xüsusiyyətləri və onların müasir dövrdə istifadəsi imkanları barədə geniş müzakirələr aparıblar. Tədbir Kamuran-Şefik Kırca Vəqfinin dəstəyi ilə reallaşdırılıb.




*Odər Əlizadə*

Konfransın yekununda qəbul edilən qərara əsasən, Türk tamğalarının çağdaşlaşdırılması işi gələcək nəsillərin ehtiyaclarına uyğun şəkildə yeni yazı qaydaları və sistemli struktur çərçivəsində davam etdirilməlidir. Bu proses Türk dünyasında ortaq mədəni və yazı sisteminin formalaşdırılması istiqamətində strateji addım kimi qiymətləndirilir.

research and modernization of Turkic tamgas constitutes a strategic matter in terms of the shared scientific heritage of the Turkic world. He stated that Azerbaijan's role as a host for scientific initiatives in this field is of particular importance. Göybəy Uluç, President of the Turkic Language Association, underscored that Turkic tamgas represent not merely a historical writing system but also the cultural memory of Turkic identity, adding that the work carried out in this field strengthens shared Turkic scientific cooperation. Gökhan Seyhan, Director of the




*Nurdin Useev*

Yunus Emre Institute Baku Representative Office, highlighted in his address the role of joint projects in developing cultural ties among Turkic world countries and stressed the importance of ensuring the continuity of such scientific events.

The conference brought together prominent scholars, researchers, and specialists from Türkiye and various Turkic states. The event was enriched by presentations from distinguished academics and experts, including Prof. Erhan Aydın, Prof. Hatice Şirin, Assoc. Prof. Mihriban Aydın, Dr. Nurdin Useev - official representative of the International Turkic Academy - Dr. Oder Alizade from Khazar, Dr. Dilbar Jamali from the Institute of Linguistics of the ANAS, and Günay Mirzayeva, a teacher at E.Movlamov Abiryatag Village Secondary School. Participants engaged in extensive discussions on the historical development of Turkic tamgas, their semantic characteristics, and the prospects for their use in the modern era. The event was realized with the support of the Kamuran-Şefik Kırca Foundation.

(*To be continued page 48*)






*Dilbər Cəmali*




*Günay Mirzəyeva*

Based on the resolution adopted at the conclusion of the conference, the modernization of Turkic tamgas must be continued within the new writing rules and a systematic structure aligned with the needs of future generations. This process is regarded as a strategic step toward the formation of a common cultural and writing system across the Turkic world. The resolution states that the work undertaken to strengthen the shared cultural space encompassing Turkic communities must extend to the entire Turkic world, with Türkiye and Azerbaijan at the forefront. The document further emphasizes that it is essential to continue efforts to adapt tamgas to the "Common Turkic Alphabet" (comprising 34 letters and adopted by the International Turkic Academy in 2024) as the foundational framework. In accordance with the resolution, it is envisaged that relevant institutions will be approached to ensure the adaptation of the prepared materials to international standards and their submission to the Unicode system. The resolution was signed and endorsed by the participating scholars and officially adopted.

In order to bring the event to the attention of the international public, a special recording was made by TRT Avaz television channel. The link to the prepared video material is provided below:

*https://www.facebook.com/share/v/1CaZhw2qKM/?mibextid=wwXIfr*

*https://x.com/i/status/2050313528771526837*

## PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU AKDENİZ UNİVERSİTETİNDƏ



*Mələk Kərimova*

## PSYCHOLOGY DEPARTMENT COORDINATOR VISIT AKDENIZ UNIVERSITY

Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru, Psixoloji Xidmət Mərkəzinin rəhbəri psixoloq Mələk Kərimova Erasmus+ proqramı çərçivəsində mayın 4-də Türkiyənin Akdeniz Universitetində akademik mobillikdə iştirak edib.

Mobillik çərçivəsində Mələk Kərimova "Sənət terapiyası texniklərinin fərdi və qrupla psixoloji xidmətdə tətbiqi" mövzusunda mühazirə ilə çıxış edib. Təhsil fakültəsinin zalında oxunan mühazirə magistr və doktorant tələbə-müəllim heyəti tərəfindən maraqla qarşılanıb.

Mühazirədə sənət terapiyasının nəzəri əsasları, praktik tətbiq üsulları, fərdi və qrup terapiyasında istifadəsi, həmçinin, emosional ifadə və psixoloji rifahın gücləndirilməsində rolu geniş şəkildə təqdim olunub. Tədbir iştirakçıları interaktiv müzakirələrdə aktiv olublar.

Bu akademik səfər Xəzər Universiteti ilə Akdeniz Universiteti arasında beynəlxalq əməkdaşlığın inkişafına, təcrübə mübadiləsinə və psixologiya sahəsində elmi-pedaqoji əlaqələrin güclənməsinə xidmət edir.

Qeyd edək ki, Erasmus+ proqramı ali təhsil müəssisələri arasında akademik mübadilə və beynəlxalq təcrübənin artırılmasını dəstəkləyən ən nüfuzlu proqramlardan biridir.

Melek Kerimova, coordinator of the Psychology Department at Khazar University and head of the Psychological Services Center, participated in an academic mobility visit to Akdeniz University in Türkiye on May 4, within the framework of the Erasmus+ program.

As part of the mobility visit, Melek Kerimova delivered a lecture on "The Application of Art Therapy Techniques in Individual and Group Psychological Services." The lecture, held in the auditorium of the Faculty of Education, was received with great interest by master's and doctoral students and academic staff.

The lecture covered the theoretical foundations of art therapy, practical application methods, its use in individual and group therapy, as well as its role in enhancing emotional expression and psychological well-being. Participants were actively engaged in interactive discussions.

This academic visit serves to advance international cooperation between Khazar University and Akdeniz University, facilitate the exchange of experience, and strengthen scholarly and pedagogical ties in the field of psychology.

It should be noted that the Erasmus+ program is one of the most prestigious programs supporting academic exchange and the enhancement of international experience among higher education institutions.

# BEYNƏLXALQ KONFRANSIN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KONSERT

# CONCERT FOR DELEGATES OF INTERNATIONAL CONFERENCE



Xəzər Universitetinin Bəşir Səfəroğlu kampusunda yerləşən Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində mayın 7-də Türk Mühəndislər Dərnəyinin Bakıda keçirilən IV Beynəlxalq Konfransının nümayəndələri üçün konsert proqramı təşkil edildi. "Xəzər"in İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı və universitetin rektoru, Dr. Raziyə İsayevanın adından qonaqları salamladı və universitet haqqında məlumat verdi. Türk Mühəndislər Dərnəyinin Genel Başkanı Yaşar Yekebağcı konsert proqramı üçün "Xəzər"in rəhbərliyinə minnətdarlığını bildirdi. Y.Yekebağcı konfrans günlərində Türkiyə və digər Türk respublikalarından gələn nümayəndələrə göstərilən hər cür dəstəyə və qonaqpərvərliyə görə, Prof.Akad. Hamlet İsaxanlıya, Dr. Raziyə İsayevaya və "Xəzər"in bütün kollektivinə dərin təşəkkürünü bildirdi.

A concert programme was organised on May 7, at the Fikret Amirov Conference and Concert Centre, located on Khazar University's Bashir Safaroglu campus, for the delegates of the 4th International Conference of the Turkish Engineers' Association held in Baku. Khazar University's Director of Public Relations and Media, Alovsat Amirbali, welcomed the guests and provided information about the university on behalf of Khazar University's founder, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, and the university's rector, Dr. Razia Isaeva. The President of the Turkish Engineers' Association, Yaşar Yekebağcı, expressed his gratitude to Khazar University's leadership for the concert programme. Y. Yekebağcı extended his deep appreciation to Prof. Acad. Hamlet Isakhanli, Dr. Razia Isaeva, and the entire Khazar University community for all the support and hospitality shown to delegates from Türkiye and other Turkic republics throughout the conference days.

Türkiyə Ədalət və İnkişaf Partiyasının xarici əlaqələr üzrə Başkan yardımçısı Lavant Ali Yıldız göstərilən qonaqpərvərliyə, böyük dəstək və yüksək təşkilatçılığa görə, " Xəzər" rəhbərliyinə minnətdarlıq etdi.

Konsert proqramında Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim Zülfiyyə Sadıqovanın rəhbərlik etdiyi Kamera Orkestrinin ifasında Üzeyir Hacıbəylinin " Leyli və Məcnun" operasından "Arazbarı", "Arşın mal alan", Həsən Rzayevin "Çahargah rapsodiyası" səsləndirildi. Məhsəti Cabbarovanın ifasında Ü. Hacıbəylinin " Çırpınırdı qara dəniz" mahnısı alqışlarla qarşılandı.

Müəllim Səbinə İsmayılovanın quruluş verdiyi və tələbələrin ifasında nümayiş etdirilən türk, Azərbaycan, qırğız, özbək, qazax rəqsləri böyük marağa səbəb oldu.

Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində keçirilən konsert proqramından türkiyəli qonaqlar xoş təəssüratlarla ayrıldılar.



Lavant Ali Yıldız, Deputy Chairman for Foreign Relations of Türkiye's Justice and Development Party, expressed his gratitude to Khazar University's leadership for the hospitality, extensive support, and outstanding organisation extended to them at the university.

The concert programme featured performances by the Chamber Orchestra, led by Zülfiyyə Sadıqova, Honoured Teacher and Head of the Music and Fine Arts Department at Khazar University, including "Arazbari" from Uzeyir Hajibeyli's opera "Leyli and Majnun," "Arşın Mal Alan," and Hasan Rzayev's "Chahargah Rhapsody." A rendition of U. Hajibeyli's "Churning Was the Black Sea" by Mahsati Jabbarova was met with warm applause.

Turkish, Azerbaijani, Kyrgyz, Uzbek, and Kazakh dances, staged by instructor Sabina Ismayilova and performed by students, generated great interest.

The Turkish guests departed from the concert programme held at the Fikret Amirov Conference and Concert Centre with fond impressions.

## TÜRKİYƏNİN HALİÇ UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ




Zehra Kılıçaslan



## REPRESENTATIVE OF TÜRKIYE'S HALIÇ UNIVERSITY AT KHAZAR UNIVERSITY

Xəzər Universiteti Erasmus+ mübadilə proqramı çərçivəsində mayın 4-8-də Türkiyənin Haliç Universitetinin nümayəndəsi Zehra Kılıçaslanı qəbul etmişdir. Səfər çərçivəsində iki ali təhsil müəssisəsi arasında beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi, təcrübə mübadiləsinin aparılması və gələcək birgə fəaliyyət istiqamətlərinin müzakirəsi olmuşdur.

Səfərin ilk günü qonağa Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən universitetin fəaliyyəti, beynəlxalq tərəfdaşlıqları, akademik proqramları və Erasmus+ layihələri haqqında ətraflı məlumat təqdim olunmuşdur. Görüş zamanı tələbə və müəllim mobilliyi, beynəlxalq layihələrdə iştirak və gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Növbəti günlərdə Zehra Kılıçaslan Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin fəaliyyəti ilə yaxından tanış olmuş, beynəlxalq tələbələrlə iş prosesi, mübadilə proqramlarının idarə olunması və tərəfdaş universitetlərlə əməkdaşlıq mexanizmləri barədə məlumat əldə etmişdir. Tərəflər arasında qarşılıqlı təcrübə paylaşımı həyata keçirilmiş və yeni əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Səfər çərçivəsində "Study in Türkiye and Exchange Opportunities" adlı seminar təşkil edilmişdir. Seminar zamanı Zehra Kılıçaslan Türkiyədə ali təhsil imkanları, Haliç Universitetində təhsil proqramları, Erasmus+ mübadilə imkanları, tələbə mobilliyi və

Khazar University hosted Zehra Kılıçaslan, a representative of Türkiye's Haliç University, from May 4 to 8, within the framework of the Erasmus+ exchange programme. The visit centred on expanding international cooperation opportunities between the two higher education institutions, sharing experiences, and discussing future joint activity directions.

On the first day of the visit, the International Relations Office of Khazar University provided the guest with detailed information on the university's activities, international partnerships, academic programmes, and Erasmus+ projects. During the meeting, views were exchanged on student and faculty mobility, participation in international projects, and future cooperation prospects.

In the following days, Zehra Kılıçaslan familiarised herself closely with the operations of Khazar University's International Relations Office, gaining insight into the processes of working with international students, managing exchange programmes, and cooperation mechanisms with partner universities. Mutual experience-sharing was carried out between the parties, and new cooperation opportunities were discussed.

As part of the visit, a seminar entitled "Study in Türkiye and Exchange Opportunities" was organised. During the seminar, Zehra Kılıçaslan provided students and faculty members with comprehensive information on higher education opportunities in Türkiye, academic programmes at Haliç University, Erasmus+

beynəlxalq təhsil təcrübəsinin üstünlükləri barədə tələbə və professor-müəllim heyətinə geniş məlumat vermişdir. Seminar interaktiv müzakirələr və sual-cavab sessiyası ilə davam etmişdir.

Səfərin son günü universitet tərəfindən qonaq üçün Azərbaycanın zəngin tarixi və mədəni irsini tanıtmaq məqsədilə ölkəmizin məşhur tarixi abidələrindən biri olan Atəşgah məbədinə ekskursiya təşkil edilmişdir. Qonağa Azərbaycanın qədim tarixi, mədəni dəyərləri və turizm potensialı barədə məlumat verilmişdir.

Bu cür beynəlxalq səfərlər Xəzər Universitetinin qlobal əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi, tələbə və akademik heyət üçün yeni imkanların yaradılması və beynəlxalq təhsil əlaqələrinin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

exchange opportunities, student mobility, and the advantages of international academic experience. The seminar continued with interactive discussions and a question-and-answer session.

On the final day of the visit, the university organised an excursion to the Ateshgah Temple — one of the country's renowned historical monuments — with the aim of introducing the guest to Azerbaijan's rich historical and cultural heritage. The guest was provided with information on Azerbaijan's ancient history, cultural values, and tourism potential.

Such international visits are of significant importance for expanding Khazar University's global cooperation network, creating new opportunities for students and academic staff, and developing international educational ties.

## OSMANİYE KORKUT ATA UNİVERSİTETİNİN PHD TƏLƏBƏSİ "XƏZƏR"DƏ

Türkiyənin Osmaniye Korkut Ata Universitetinin PhD tələbəsi Murad Güneş mayın 4-8-də Xəzər Universitetində İnşaat və mexanika mühəndisliyi sahəsi üzrə təşkil olunan təcrübə proqramında iştirak edib.


Günel Bahəddinova, Murad Güneş

“Xəzər”in Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə həyata keçirilən proqram çərçivəsində tələbə ilə tanışlıq görüşü mayın 4- də olub. Görüşdə Təbiət elmləri, sənət və texnologiya üzrə Yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Elektronika və fizika departamentinin müəllimi Məhəmməd Əlizadə, Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Seyran Əliyeva iştirak ediblər. Görüş zamanı mexanika mühəndisliyi sahəsində tədris, fəaliyyətlər, universitetlərarası ikitərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi, akademik əlaqələrin möhkəmləndirilməsi, eləcə də təcrübə müddətində həyata keçiriləcək fəaliyyət planı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

## PHD STUDENT FROM OSMANIYE KORKUT ATA UNIVERSITY AT KHAZAR UNIVERSITY

A PhD student from Osmaniye Korkut Ata University of Türkiye, Murad Güneş, participated in a training program in the field of Civil and Mechanical Engineering organized at Khazar University from May 4 to 8 .

Within the framework of the program, arranged by Khazar University's International Relations Office, an introductory meeting with the student was held on May 4. The meeting was attended by Dean of the Graduate School of Science, Art and Technology Dr. Gunel Bahaddinova, Dean of the Graduate School of Science and Engineering Dr. Fakhranda Afandiyeva, Instructor of the Department of Electronics and Physics Mahammad Alizadeh, and Coordinator of the International Relations Office Seyran Aliyeva.

During the meeting, discussions covered teaching and activities in the field of mechanical engineering, expanding inter-university bilateral cooperation opportunities, strengthening academic ties, as well as the action plan for activities to be carried out during the internship period and matters of mutual interest.

# TARİXİ VƏ ƏDƏBİ İRSƏ SƏYAHƏT

# A JOURNEY THROUGH HISTORICAL AND LITERARY HERITAGE

Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri "Azərbaycan Tarixi" fənninin tədrisi çərçivəsində Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədovun rəhbərliyi ilə mayın 10-da AMEA Arxeologiya və Antropologiya İnstitutunun Muzey-Sərgi zalında, Səməd Vurğunun Ev-Muzeyində və Milli Azərbaycan Tarixi Muzeyində olublar.

First-year students of the Graduate School of Science and Engineering at Khazar University, as part of the instruction of the "History of Azerbaijan" course, visited the Museum-Exhibition Hall of the ANAS Institute of Archaeology and Anthropology, the Home-Museum of Samad Vurgun, and the National Museum of Azerbaijan History on May 10, under the guidance of Dr. Yagub Mammadov, lecturer at the Department of History and Archaeology.



AMEA Arxeologiya və Antropologiya İnstitutunun İçərişəhərdə yerləşən Muzey-Sərgi zalında Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə olunmuş, Alt Paleolit dövründən Orta əsrlərin sonuna qədərki mərhələləri əks etdirən eksponatlar nümayiş olunur. Bir sıra arxeoloji tədqiqatlarda iştirak etmiş Dr. Yaqub Məmmədov tələbələrə Azərbaycanın arxeoloji irsi haqqında ətraflı məlumat verib, onların suallarını cavablandırıb.

Sonra tələbələr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ilk Xalq şairi, poeziya və dramaturgiya sahəsində yaratdığı əsərlərlə milli-mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamış Səməd Vurğu-

The Museum-Exhibition Hall of the ANAS Institute of Archaeology and Anthropology, located in the Icherisheher (Old City), displays exhibits obtained as a result of archaeological research conducted across Azerbaijan, covering periods from the Lower Paleolithic to the late Middle Ages. Dr. Yagub Mammadov, who has participated in numerous archaeological expeditions, provided students with detailed information about Azerbaijan's archaeological heritage and answered their questions.

The students then visited the Home-Museum of Samad Vurgun — an outstanding representative of Azerbaijani literature, the first People's Poet, whose works in poetry and dramaturgy played a significant role in shaping national and spiritual values. The visit

nun Ev-Muzeyində oldular. Ekskursiya şairin 120 illik yubileyi ilə eyni vaxta təsadüf etdiyindən tələbələr üçün xüsusi əhəmiyyətə malikdir. Muzeyin əməkdaşı Nella Məmmədova tələbələri Səməd Vurğunun həyat və yaradıcılığını əks etdirən eksponatlarla tanış edib.

Milli Azərbaycan Tarixi Muzeyində tələbələr Azərbaycan xalqının tarixi inkişafını əks etdirən zəngin kolleksiya ilə tanış olublar. Burada qədim




arxeoloji tapıntılar, orta əsrlərə aid silahlar və sənətkarlıq nümunələri, XIX–XX əsrlərin məişət əşyaları və sənəd materialları nümayiş etdirilir. Ekskursiya zamanı həmçinin, müasir dövrə aid bölmələr də diqqət çəkib. Bu ekspozisiyalarda Azərbaycan Respublikasının dövlətçilik tarixi, müstəqillik dövründə əldə olunan nailiyyətlər, müasir elmi və mədəni irs nümunələri, həmçinin, Qarabağın işğaldan azad edilməsindən sonra bərpa olunan abidələr və yeni arxeoloji tədqiqatların nəticələri təqdim olunub.

Mütəmadi təşkil olunan bu cür ekskursiyalar tələbələrin elmi dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Onlar nəzəri dərslərdə öyrəndikləri bilikləri real tarixi abidələr və muzey eksponatları üzərində tətbiq etmək imkanı qazanır, bununla da elmi biliklərini praktik müşahidələrlə möhkəmləndirirlər.

holds particular importance for the students, as it coincides with the poet's 120th anniversary. Museum staff member Nella Mammadova introduced the students to exhibits reflecting Samad Vurgun's life and creative legacy.

At the National Museum of Azerbaijan History, the students explored a rich collection tracing the historical development of the Azerbaijani people. On display were ancient archaeological finds, medieval weapons and craftwork, household items and documentary materials from the 19th–20th centuries. During the excursion, sections dedicated to the contemporary period also drew considerable attention. These exhibitions presented the history of Azerbaijani statehood, achievements of the independence era, examples of modern scientific and cultural heritage, as well as monuments restored following the liberation of Karabakh from occupation and the findings of new archaeological research.

Regularly organized excursions of this kind play a significant role in shaping students' scientific worldview. They gain the opportunity to apply the knowledge acquired in theoretical classes to actual historical monuments and museum exhibits, thereby reinforcing their academic understanding through practical observation.

# ÖZBƏKİSTANLI TƏLƏBƏLƏR XƏZƏR UNİVERSİTETİNDƏ
# UZBEK STUDENTS AT KHAZAR UNIVERSITY

Mayın 12- də Xəzər Universitetində beynəlxalq akademik əməkdaşlıq çərçivəsində Humanitar, təhsil və sosial elmlər fakültəsinin Psixologiya ixtisasında filologiya üzrə fəlsəfə doktoru Gülşanə Xudiyevanın tədris etdiyi Azərbaycan ədəbiyyatı dərsinin qonaq iştirakçıları 2026-cı il Özbəkistanın Asiya Xalqları Universitetindən gələn müəllim və tələbələr olublar.

On May 12, within the international academic cooperation at Khazar University, teachers and students from the University of Asian Peoples of Uzbekistan attended as guest participants in an Azerbaijani literature class taught by PhD in Philology Gulshana Khudiyeva of the Psychology program at the School of Humanities, Education and Social Sciences.




Dərs çərçivəsində tələbələr Xumar Kərimli, Ayan Yusifli, Esmira Sadullayeva, Fatimə Məmmədova, Hayrunnisa Polat və Sevinc İsayeva Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığına həsr olunmuş layihələrini təqdim ediblər. Təqdimatlar zamanı tələbələr şairin həyatı və ədəbi fəaliyyəti haqqında Azərbaycan və ingilis dillərində ətraflı məlumat veriblər.

Layihə çərçivəsində tələbələr Bəxtiyar Vahabzadənin ev-muzeyini ziyarət edərək, oradan çəkdikləri görüntüləri və muzeyin direktoru Elşən Zəkəriyyəbəyli ilə müsahibəni təqdim ediblər.

Dərsin davamında tələbələr şairin 20 Yanvar şəhidi Larisa Məmmədovaya həsr etdiyi şeiri kiçik səhnəcik formasında nümayiş etdiriblər.

Şairin "Sandıqdan səslər" adı altında çap olunan şeirlərindən "Hörümçək tor bağladı"nın təqdimatı

During the class, students Xumar Karimli, Ayan Yusifli, Esmira Sadullayeva, Fatima Mammadova, Hayrunnisa Polat and Sevinc Isayeva presented their projects dedicated to the life and work of Azerbaijani People's Poet Bakhtiyar Vahabzade. During the presentations, the students provided detailed information about the poet's life and literary activity in both Azerbaijani and English.

As part of the project, the students visited Bakhtiyar Vahabzade's house-museum and presented footage taken there along with an interview with the museum's director, Elshan Zakariyyabali.

Later in the class, the students performed a short theatrical scene based on the poet's poem dedicated to January 20 martyr Larisa Mammadova.

During the presentation of "A Spider Spun a Web" from the poet's poems published under the title

zamanı tələbələrin kiçik sandıqdan istifadə etməsi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Əyləncəli yarış hissəsində isə özbək tələbələr də fəal iştirak edərək, sualları cavablandırıb və kiçik hədiyyələr qazanıblar.

Dərsin ən yaddaqalan məqamlarından biri “Dağda şəlalə kimi” şeirinin təqdimatı olub. Tələbələrin pantomim dili ilə hazırladıqları səhnəcik öz fərqliliyi və yüksək emosionallığı ilə qonaqların böyük marağına səbəb olub.

Sonda xatirə şəkli çəkdirilib. Özbəkistandan gələn tələbələr  Xəzər Universitetinin tələbələrini öz ölkələrinə dəvət ediblər.

"Voices from the Chest," the students' use of a small chest drew considerable interest from the audience.

In the entertaining quiz segment, the Uzbek students also participated actively, answering questions and winning small prizes.

One of the most memorable moments of the class was the presentation of the poem "Like a Waterfall in the Mountains." The scene prepared by the students in pantomime captivated the guests with its distinctiveness and strong emotional impact.

The event concluded with a group photo. The visiting students from Uzbekistan extended an invitation to Khazar University students to visit their country.

## MALİYYƏ UÇOTU, KREDİTOR VƏ  DEBİTOR BORCLAR MÖVZUSUNDA TƏLİM

## TRAINING ON FINANCIAL ACCOUNTING, ACCOUNTS PAYABLE AND ACCOUNTS RECEIVABLE



Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə mayın 12-də  Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Cəfər Muxtarzadənin “SAP Maliyyə Uçotu: beynəlxalq korporativ standartlara uyğun praktik tətbiq (Kreditor və debitor borcları və s.)” mövzusunda təlimi təşkil olunub.

Təlim zamanı SAP sisteminin beynəlxalq korporativ standartlara uyğun maliyyə uçotu, kreditor və debitor borclarının idarə olunması, hesabatların hazırlanması və maliyyə proseslərinin avtomatlaşdırılmasındakı üstünlükləri ətraflı şəkildə təhlil  edilib.

Sonda təlimdə iştirak edən tələbələrin sualları cavablandırılıb və müvafiq sertifikatlar təqdim olunub.

Khazar University's Department of Economics and Management organised a training session on May 12, delivered by Jafar Mukhtarzade, an employee of the Ministry of Labour and Social Protection of Population of the Republic of Azerbaijan, on the topic of "SAP Financial Accounting: Practical Application in Accordance with International Corporate Standards (Accounts Payable and Accounts Receivable, etc.)."

During the training, an analysis was conducted of the advantages of the SAP system in financial accounting in compliance with international corporate standards, management of accounts payable and accounts receivable, preparation of reports, and automation of financial processes. At the end of the session, questions from participating students were answered and the relevant certificates were presented.

# KARYERA SƏRGİSİ

Xəzər Universiteti Neftçilər kampusunun Mərmər zalında Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə mayın 13- də "Karyera Sərgisi – 2026" keçirildi.




*Zərifə Əliyeva*

Karyera sərgisi tələbə və məzunları ölkənin aparıcı işəgötürənləri ilə bir platformada birləşdirərək onların birbaşa ünsiyyət qurmasına, peşəkar əlaqələrini genişləndirməsinə və yeni əməkdaşlıq imkanları əldə etmələrinə şərait yaratdı.

Sərginin açılışında Xəzər Universitetinin Karyera

# CAREER FAIR

A "Career Fair – 2026" was held on May 13, in the Marble Hall of Khazar University's Neftchiler campus, organized by the Career and Alumni Center.




*Raziyə İsayeva*

The career fair brought students and alumni together with the country's leading employers on a single platform, creating opportunities for direct communication, professional networking, and new collaboration prospects.

At the opening of the fair, Zarifa Aliyeva, Director



və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva çıxış edərək bildirdi ki, bu cür tədbirlər  tələbə və məzunların əmək bazarına daha rahat inteqrasiyasına dəstək olmaqla yanaşı, universitet ilə iş dünyası arasında əməkdaşlığın güclənməsinə mühüm töhfə verir.

of Khazar University's Career and Alumni Center, stated that such events not only support the smoother integration of students and alumni into the labor market but also make a significant contribution to strengthening cooperation between the university and the business world.




Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva çıxışında universitet-şirkət əməkdaşlığının əhəmiyyətindən danışaraq qeyd etdi ki, bu cür sərgilər tələbələrin peşəkar inkişafı, əyani təcrübə qazanması və gələcək karyera imkanlarının genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. O,




həmçinin, karyera sərgilərinin universitet və iş dünyası arasında körpü rolunu oynadığını vurğuladı.

Sərgidə  50-yə yaxın yerli və beynəlxalq şirkət, təşkilat və qurum iştirak edərək, öz fəaliyyət sahələ-

(*Ardı səh.60-da*)

In her address, Khazar University Rector Dr. Razia Isaeva spoke about the importance of university–company collaboration, noting that such fairs are of great significance in terms of students' professional development, gaining on-site experience, and expanding future career opportunities. She also emphasized that career fairs serve as a bridge between the university and the business world.

Nearly 50 local and international companies, organizations, and institutions participated in the fair, presenting their fields of activity, current vacancies, and internship programs. The participation of prominent companies such as SOCAR, KPMG, Deloitte, EY, Azersun, and the Veyseloglu Group of Companies further underscored the significance of the event.

The banking and finance sector was broadly represented by institutions such as Bank of Baku, AccessBank, Premium Bank, Yelo Bank, and AFB Bank. These institutions provided students with detailed information on real working environments, career development pathways, and the skills required in the financial sector.

In the tourism and hospitality sector, Four

(*To be continued page 60*)

rini, mövcud vakansiyalarını və təcrübə proqramlarını təqdim etdilər. İştirakçılar arasında SOCAR, KPMG, Deloitte, EY, Azərsun və Veysəloğlu Şirkətlər Qrupu kimi nüfuzlu şirkətlərin yer alması sərginin əhəmiyyətini daha da artırdı.

Bank və maliyyə sektoru Bank of Baku, AccessBank, Premium Bank, Yelo Bank və AFB Bank kimi qurumlarla geniş təmsil olundu. Bu qurumlar tələbələrə real iş mühiti, karyera inkişaf yolları və maliyyə sektorunda tələb olunan bacarıqlar barədə ətraflı məlumat verdilər.

Turizm və xidmət sahəsində Four Seasons Hotel Baku, Holiday İnn Baku, Tufandağ Mountain Resort və digər hotellər iştirak edərək, qlobal iş mühiti və karyera imkanları barədə təqdimatlar etdilər. Təhsil və şəxsi inkişaf istiqamətində "Dunya" Məktəbi, ASAN Kadr, AIESEC, INNAB Business School, CELT Colleges, IDTECH Academy, Event Volunteers, STİMUL Təhsil Mərkəzi kimi qurumlar gənclərə beynəlxalq proqramlar, təlimlər və inkişaf imkanları, könüllülük proqramları haqqında məlumat verdilər.

Eyni zamanda, Azərbaycan Dəmir Yolları, Şirvan Aqro, Arsenal Group, Hasvet Baytarlıq Təbabəti kimi qurumlar da sərgidə iştirak edərək, müxtəlif sahələr üzrə karyera perspektivlərindən danışdılar.

Sərgi boyunca tələbə və məzunlar şirkət nümayəndələri ilə birbaşa ünsiyyət qurmaq, CV-lərini təqdim etmək, müsahibə simulyasiyalarında iştirak etmək və peşəkar şəbəkələrini genişləndirmək imkanı əldə etdilər. Tədbir həmçinin, universitet–sənaye əməkdaşlığının gücləndirilməsi, gənclərin əmək bazarına daha hazırlıqlı daxil olması və onların potensialının üzə çıxarılması baxımından mühüm rol oynadı. "Karyera Sərgisi – 2026" iştirakçılar tərəfindən böyük maraqla qarşılandı və bir daha göstərdi ki, bu cür təşəbbüslər gənclərin gələcək uğurlarının formalaşmasında böyük əhəmiyyətə malikdir.




Seasons Hotel Baku, Holiday Inn Baku, Tufandag Mountain Resort, and other hotels participated, delivering presentations on global working environments and career opportunities.

In the fields of education and personal development, institutions such as "Dunya" School, ASAN Kadr, AIESEC, INNAB Business School, CELT Colleges, IDTECH Academy, Event Volunteers, and STIMUL Education Center informed young people about international programs, trainings, development opportunities, and volunteer programs.

Additionally, Azerbaijan Railways, Shirvan Agro, Arsenal Group, and Hasvet Veterinary Medicine also participated in the fair, discussing career prospects across various fields. Throughout the fair, students and alumni had the opportunity to communicate directly with company representatives, submit their CVs, participate in interview simulations, and expand their professional networks. The event also played a significant role in strengthening university–industry collaboration, better preparing young people for entry into the labor market, and bringing their potential to the fore. "Career Fair – 2026" was met with great interest by participants and once again demonstrated that such initiatives are of major importance in shaping the future success of young people.

## İSTANBUL UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

Xəzər Universiteti Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə doktorant Aytən Eyyublunun mayın 13-də "Azərbaycanın latın qrafikalı əlifbaya keçid prosesinin Türkiyədə aparılan əlifba müzakirələrinə təsiri (1923–1930-cu illər)" mövzusunda seminarı keçirilib.

Məruzəçi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Türkiyənin İstanbul Universitetində doktorantura təhsili alır.

Seminarda XX əsrin ilk yarısında Azərbaycan və Türkiyədə əlifba məsələsi ətrafında formalaşan müzakirələr müqayisəli şəkildə təhlil edilib. Təqdimatda ərəb əlifbasının türk dilinin fonetik xüsusiyyətlərinə uyğunluğu, savadlılıq probleminə təsiri və latın əlifbasına keçidin modernləşmə prosesi ilə əlaqəsi araşdırılıb. Seminarda həmçinin, Mirzə Fətəli Axundzadənin əlifba islahatı ilə bağlı ideyaları, Yeni Türk Əlifba Komitəsinin fəaliyyəti və Bakı Türkoloji Qurultayının türk dünyasında yaratdığı təsirə toxunulub. Azərbaycan mühacirət mətbuatının, xüsusilə "Yeni Qafqasiya" məcmuəsinin sovet əlifba siyasətinə münasibəti və tənqidləri də təqdimatın əsas mövzularından biri olub. Seminar çərçivəsində Azərbaycanın latın əlifbasına keçid qərarının Türkiyədə əlifba müzakirələrinin yenidən canlanmasına təsiri müqayisəli şəkildə dəyərləndirilib. Eyni zamanda, Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən "Harf İnkılâbı"nın Türkiyənin modernləşmə prosesində mühüm mərhələlərdən biri olduğu vurğulanıb.

## SEMINAR BY A DOCTORAL STUDENT STUDYING AT ISTANBUL UNIVERSITY

Khazar University's Graduate School of Science, Art and Technology and the Department of History and Archaeology organized a seminar on May 13, delivered by doctoral student Ayten Eyyublu, on the topic "The Influence of Azerbaijan's Transition to the Latin-Script Alphabet on Alphabet Discussions Conducted in Türkiye (1923–1930)."

The presenter is pursuing doctoral studies at Istanbul University in Türkiye under a trilateral agreement between the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University, within the "State Program on Enhancing the International Competitiveness of the Higher Education System of the Republic of Azerbaijan for 2019–2023."

